**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

---

*Əlyazması hüququnda*

**PAŞAYEVA MƏHƏBBƏT TOFİQ QIZI**

# AZƏRBAYCANINLILARIN ADƏT VƏ İNANCLARI

5102.01-Etnoqrafiya, etnologiya

Tarix üzrə elmlər doktoru alimlik dərəcəsi almaq
üçün təqdim olunan dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı - 2013**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası
Arxeologiya və Etnoqrafiya İnstitutunun "Müasir etnoqrafiya"
şöbəsində yerinə yetirilmişdir

**Elmi məsləhətçi:** **Teymur Əmiraslan oğlu Bünyadov**
AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor

**Rəsmi opponentlər:** **Hacı Qadir İbrahim oğlu Qədirzadə**
AMEA-nın müxbir üzvü,
tarix elmləri doktoru, professor

**Solmaz Səttar qızı Məhərrəmova**
tarix elmləri doktoru

**Qəzənfər Məmməd oğlu Paşayev**
filologiya elmləri doktoru, professor

**Aparıcı müəssisə:** **Azərbaycan Dövlət Pedoqoжi Universitetinin "Azərbaycan tarixi" kafedrası**

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində fəaliyyət göstərən (5102.01-Etnoqrafiya və etnologiya) tarix üzrə elmlər doktoru alimlik dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən Birdəfəlik B/D.01.071 Dissertasiya Şurasının «_30__»_04____ 2013-cü il tarixli iclasında saat «_____» keçiriləcəkdir.

**Ünvan: Az 1143, Bakı şəhəri, H.Cavid prospekti, 31**
Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «_____» 2013-cü ildə göndərilmişdir.

**B/D.01.071 Dissertasiya**
**Şurasının elmi katibi**
**tarix üzrə fəlsəfə doktoru:** **Səfər Hüseyn oğlu Aşurov**

**İŞ**

**Mövzunun aktuallığı.** Azərbaycan qədim tarixə, zəngin mədəni irsə malik olan bir ölkədir. Xalqımızın minilliklərdən bəri davam edən tarixini, mədəniyyətini, ənənələrini, dünyagörüşlərini özündə əks etdirən adət və inanclar hər zaman öz aktuallığını qoruyur. Milli adət və ənənələr tarixin bütün mərhələlərində ictimai-mədəni həyatın əsas göstəricisi kimi çıxış edir. Adət və inanclar xalqın kimliyini əks etdirən milli-mənəvi varlığının ilkin əlamətlərindəndir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin söylədiyi kimi, "Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik. Fəxr edə bilərik ki, bizim mədəniyyətimiz qədim zamanlarda da çox zəngin və yüksək olmuşdur.[1]

Qloballaşma şəraitində adət və ənənələr tədricən unudulmağa başlasa da, xalqın mərasim ayinlərində, folklor və xalq inanclarında yaşayaraq nəsildən-nəsilə ötürülür. Gələcək nəsillərə miras qalması üçün xalqın yaddaşından süzülüb gələn qədim adətlərimizin və xalq inanclarının tədqiqi və təbliği etnoqrafiya elminin vacib problemlərindəndir. Azərbaycan xalqının unudulmuş və unudulmaqda olan milli adət-ənənələrinin öyrənilməsi, yaşadılması, təbliği və müxtəlif vasitələrlə yeni nəslə ötürülməsi hər zaman mühüm əhəmiyyət kəsb edir.

Bu gün Azərbaycan dövləti milli adət-ənənələrimizin yaşaması və təbliği ilə bağlı bir çox layihələr həyata keçirir, tarixi-mədəni irsimizin dövlət səviyyəsində qorunması və dünya miqyasında tanıdılması istiqamətində böyük işlər görür. Muğam və aşıq sənəti, saz, tar kimi musiqi alətlərimiz, milli bayramımız Novruz YUNESKO-nun qorunan maddi və qeyri-maddi irs siyahısına salınmışdır. Bütün bunlar Azərbaycan etnoqrafiya elminin qarşısına da mühüm vəzifələr qoyur. Bu baxımdan müasir dövrdə Azərbaycan etnoqrafiya elminin ən aktual problemlərindən biri azərbaycanlıların qədim mərasim ənənələrinin, adət və inanclarının, mənşəyinin, tarixi köklərinin tədqiqi, onların umumazərbaycan mənəvi dəyərlər sistemindəki rolunu üzə çıxarmaqdır.

Əlverişli təbii-coğrafi mövqeyi tarixin müxtəlif mərhələlərində bir çox qəbilə, tayfa və xalqların Azərbaycana axın etməsinə səbəb olmuşdur. Qərblə şərq, cənubla şimal arasınada bir körpü rolu oynayan Azərbaycan

[1] Əliyev H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1997, s.24-25.

ərazisinə axışan bu tayfaların hər biri müasir Azərbaycan xalqının etnik təşəkkülündə özünəməxsus rol oynamışdır. Azərbaycan əhalisinin ən səciyyəvi xüsusiyyətlərindən biri onun bu rəngarəng demoqrafik quruluşunu müxtəlif tarixi şəraitlərdə qoruyub saxlaya bilməsidir. Hələ 1897-ci ildə Rusiya imperiyasında aparılmış əhalinin ümumi siyahıyaalması məlumatlarında Azərbaycan ərazisində onlarla müxtəlif xalqların, etnik qrupların nümayəndələrinin yaşadığı qeydə alınmışdır[1]. Azərbaycanda məskun olan etnosların hər biri bu ərazidəki təşəkkülü mərhələsində öz tarixi yolunu qət etmiş, formalaşma dövrü keçirmişdir. Nəticədə Azərbaycan ərazisində minilliklər boyu formalaşan spesifik, rəngarəng, bu gün azərbaycanlıların mənəvi irsini təşkil edən ənənəvi mədəniyyət formalaşmışdır. Təsadüfi deyil ki, Azərbaycan hər zaman "etnoqarfik xəzinələr muzeyi" kimi dəyərləndirilmişdir.[2] Bu etnoqrafik rəngarənglik hər zaman etnoqarfların diqqətini cəlb etmişdir. Xüsusilə də Azərbaycanın tarixi-etnoqarfik bölgələri içərisində Azərbaycan türkləri ilə birgə ləzgilər, tatlar, xınalıqlar, qrızlar, buduqlar, dağ yəhudilərinin də məskun olduğu Quba-Xaçmaz, avarlar, saxurlar, rutullar, ingiloylar, udilərin də yaşadığı Şəki-Zaqatala, talışların da məskun olduğu Lənkəran-Astara, eləcə də kürdlərin də yaşadığı Kəlbəcər-Laçın bölgələri öz etnik rəngarəngliyi ilə seçilmişdir. Tarixin müəyyən dövrlərindən Azərbaycanı özlərinə məskən seçmiş bu etnoslar zaman keçdikcə Azərbaycan türkləri ilə ümumi, vahid mənəvi dəyərlərə sahib olsalar da, onların hər biri öz etnik spesifikliyini də müəyyən dərəcədə qoruyub saxlamaqla bütövlükdə Azərbaycan mənəvi mədəniyyətinə özünəməxsus rəng qatmışlar. Tarix boyu müxtəlif xalqlar və mədəniyyətlər arasında qarşılıqlı canlı əlaqələrin mövcud olduğu Azərbaycanın təbii-tarixi təşəkkül prosesində iştirak edən bu xalqların hər biri ümumazərbaycan mədəniyyətinin ortaq sahibinə çevrilmişdir. Bununla da "azərbaycanlılar" adı altında qəbul etdiyimiz vahid birliyin özülü qoyulmuş və onun tərkibinə aparıcı türk amili ilə yanaşı Azərbaycanda məskunlaşmış bütün xalqlar daxil olmuşdur.[3] Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin hər zaman vurğuladığı kimi, "Azərbaycanlı" məfhumu çox genişdir. Ərazimizdə

---

[1] Azərbaycan Milli Ensiklopediyası / Redaksiya heyətinin sədri İlham Heydər oğlu Əliyev. Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi. Bakı, 2007, s.93.
[2] Велиев М. Г. (Бахарлы) Азербайджан (Физико-географический, этнографический и экономический очерк). Баку, 1921, с.19.
[3] Azərbaycan Milli Ensiklopediyası / Redaksiya heyətinin sədri İlham Heydər oğlu Əliyev. Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi. Bakı, 2007, s.99.

yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da – bütünlükdə hamısı azərbaycanlıdır. Bu "azərbaycanlı" sözü bizi həmişə birləşdirib. Dünyada insanların, insan cəmiyyətinin inkişafı elə mərhələlərdən keçib, elə ərazi dəyişiklikləri olub ki, bunlar hamısı ayrı-ayrı kökdən olan millətləri, xalqları bir-biri ilə birləşdirib.[1]

Hazırda da Azərbaycanda əhalinin böyük əksəriyyətini (90%-dən çoxunu) təşkil edən Azərbaycan türkləri ilə yanaşı Hind-Avropa dilləri ailəsinin İran dilləri qrupuna daxil olan tatlar, talışlar, kürdlər, dağ yahudiləri, Qafqaz dillərinə daxil olan ləzgilər, avarlar, udilər, saxurlar, xınalıqlər, buduqlər, qrızlər, ingiloylar yaşamaqdadır. Bu etnosların hər birinin öz etnik adı olmaqla bərabər onlar Azərbaycan ərazisində məskun olduqlarına görə özlərini azərbaycanlı hesab edirlər. Bunu XIX-XX əsrin əvvələrində Azərbaycanda gedən etnik proseslərini araşdıran Q.Volkova, B.V.Miller kimi etnoqrafların tədqiqatlarından da görmək mümkündür.[2] Həmçinin müasir dövrdə Azərbaycanda yaşayan xalqların etnik özünüdərketmə vəziyyətini müəyyənləşdirmək üçün aparılan etnososioloжi tədqiqatların nəticələri də bunu deməyə əsas verir.[3] Bu baxımdan azərbaycanlıların adət və inanclarının öyrənilməsində Azərbaycan türkləri ilə bərabər avar, udi, ingiloy, ləzgi, saxur, tat, talış, xınalıq, qrız, buduq kimi Azərbaycanda məskun olan digər etnosların da tədqiqata cəlb edilməsi, xalqımızın vahid bir ad altında öyrənilməsi işində mühüm əhəmiyyət kəsb edir. Belə yanaşma həm də bütövlükdə Azərbaycan mənəvi dəyərlərinin qorunmasına xidmət edir.

Azərbacanda yaşayan etnosların mənəvi mədəniyyətinin vahid Azərbaycan mədəniyyəti kontekstində araşdırılması mənəvi mədəniyyətimizin dərin tarixi köklərinin üzə çıxarılması üçün də geniş imkanlar açır. Adət və inancların, onların mənşəyinin araşdırılması xalqların etnik ənənə və spesifik xüsusiyyətlərinin öyrənilməsi ilə bərabər etnogenetik əlaqələr, bir ərazidə yaşayan xalqların etnomədəni münasibətlərinin aşkara çıxarılmasına kömək edir. Azərbaycan türkləri ilə

---

[1] Heydər Əliyev. Respublikada yaşayan ləzgi ictimaiyyətinin nümayəndələri ilə görüş / Elektron sənədlər toplusu, s.54. http://files.preslib.az/projects/toplu/nitq/1995.

[2] Миллер Б.В. Предварительный отчет о поездке в Талыш летом 1925 г. Известия Общества Обследования и Изучения Азербайджана. Баку, 1926, №1,с21-26.
Волкова Н.Г.Этнические процессы в Закавказье в Х1Х-ХХ вв // Кавказский этнографический сборник. 4, Москва, издательство «Наука» 1969.

[3] Мамедли А. Состояние этнического самосознания народов Азербайджана. http://www.ethnoglobus.com/index.php?l=ru&m=news&id=529

bərabər Azərbaycanda yaşayan digər etnosların da adət-ənənələrinin qarşılıqlı və müqayisəli təhlili mənəvi mədəniyyət tariximizin ümumi dəyərlərinin öyrənilməsi ilə bərabər, mərasim ənənələrimizin etnomədəni bağlarını da üzə çıxarmağa, Azərbaycan mənəvi mədəniyyətinin ümummilli çalarlarının zənginləşməsinə də xidmət edir. Çünki vahid ümumxalq mədəniyyətinin inkişafını təcrid olunmuş şəkildə düşünmək mümkün deyildir.

Azərbaycanda yaşayan avar, ləzgi, rutul, saxur, udi, ingiloy, talış, kürd, tat, xınalıq qrız, buduq kimi bir çox etnoslar Azərbaycan türkləri ilə uzunmüddətli birgə yaşayış şəraitində zəngin müştərək ənənələrə və ortaq mənəvi dəyərlərə sahib olmuşlar. Bu etnosların hər birinin adət və inanclarının qarşılaşdırılaraq araşdırılması xalqların milli-mənəvi dəyərlərinin, həmçinin əsrlər boyu formalaşan qarşılıqlı mədəni əlaqələrin inkişafına xidmət edir. Tədqiqatın belə qarşılıqlı-müqayisəli araşdırma istiqamətində aparılması eyni zamanda ümumazərbaycan mənəvi mədəniyyətinin qədim və spesifik elementlərinin üzə çıxarılması üçün də geniş imkanlar açır.

Azərbaycan xalqının xarici düşmənləri, xüsusilə də hər zaman Rusiyaya arxalanaraq torpaqlarımızı işğal edən erməni şovinistləri respublikamızda hər zaman qarşıdurma siyasəti yeritməyə çalışmışlar. Odur ki, Azərbaycanın parçalanması istiqamətində ideoloжi mübarizə aparan, xalqlar arasında nifaq salmağa səy göstərən qüvvələrə qarşı xalqların mədəni inteqrasiyasını əks etdirən, tutarlı elmi dəlillərə söykənən tarixi-etnoqrafik tədqiqatlara ehtiyac var. Azərbaycanın etnik cəhətdən rəngarəng olan bölgələrində yaşayan əhalinin mənəvi mədəniyyətinin mühüm bir parçası olan adət və inanclarının qarşılaşdırılaraq araşdırılması nəticəsində ümumi, ortaq və spesifik çəhətlərinin müəyyənləşdirilməsi bütövlükdə Azərbaycan xalqının mədəni irsinin, milli dəyərlərinin qorunması və nəsildən-nəsilə ötürülməsi baxımından aktualdır.

Təqdim olunan tədqiqat işi Azərbaycan Respublikasının azərbaycançılıq ideologiyasına əsaslanan milli siyasətinin əsas istiqamətlərini əks etdirməsi baxımından da aktual və əhəmiyyətlidir. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan azərbaycançılıq Azərbaycan xalqının milli ideologiyasıdır. Xalqının tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə böyük qürur hissilə yanaşan Heydər Əliyev Azərbaycan mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini özündə əks etdirən azərbaycançılığı təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. Azərbaycançılığın əsasında Azərbaycanı özünə vətən sayan bütün xalqların milli, etnik, dini və sosial hüquqlarının

bərabərliyi ideyası dayanır. Azərbaycançılıq Azərbaycanın türk dünyasının ayrılmaz parçası olmasının təsdiqi ilə bərabər, Azərbaycan türklərinin ölkədəki digər etnoslara tolerant münasibətinin, sülh içərisində yaşamaq istəyinin də göstəricisidir. Azərbaycançılıq milliyətindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq Azərbaycan xalqının hər bir nümayəndəsini birləşdirir və Azərbaycanda yaşayan bütün etnosların nümayəndləri və mədəniyyətləri ilə birgə daha güclü və qüvvətli Azərbaycanı hədəfləyir. Azərbaycan dövlətinin ölkəmizdə yaşayan xalqlara, onların mənəvi mədəniyyətinə münasibətini Ulu Öndərimiz Heydər Əliyevin bu fikirlərində daha aydın görmək olur: "Dövlət nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Çalışacağıq ki, bu sərvətimiz əbədi olsun. İstər böyük, istər kiçik xalq olsun, fərqi yoxdur, onların özünəməxsus adət-ənənələri, folkloru, dilinin müəyyən ayrılığı yaşayıb və yaşamalıdır. Bu da göstərir ki, onlar yaşamağa qadir olan adət-ənənələrdir.[1]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin bu siyasətini davam etdirərək ölkəmizin polietnik bölgələrinə səfərləri zamanı Azərbaycanda yaşayan bütün xalqların dövlət qayğısı ilə əhatə olunduğunu və bir prezident kimi Azərbaycanda yaşayan bütün xalqların təminatçısı olduğunu dəfələrlə qeyd etmişdir.[2] Ölkə başçısı başqa bir çıxışında qeyd etmişdir ki, Azərbaycanda müxtəlif xalqlar bir ailə kimi yaşayır. Burada yaşayan bütün xalqlar eyni hüquqa malikdir, onlara eyni münasibət göstərilir. Bizim siyasətimiz bundan ibarətdir. Bu, ulu öndər Heydər Əliyevin siyasətidir.[3] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 19 dekabr 2007-ci ildə verdiyi sərəncamla Xınalıq etnosunun, xınalıq mədəniyyətinin qorunub saxlanması üçün Quba rayonunun Xınalıq kəndinin ərazisi Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğu elan

---

[1] Əliyev H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1997, s.34.

[2] Nic qəsəbəsinin sakinləri ilə görüş zamanı Azərbaycan Prezidenti İlham Əliyevin nitqi / Xalq qəzeti, 2005, 18avqust.

[3] Balakən rayonu ictimaiyyətinin nümayəndələri ilə görüş zamanı Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqi / Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları, 2006. s.104 . http://www.elibrary. az/docs/ialiyev/ 2006.pdf.

edilmişdir. Xınalıq YUNESKO-nun dünya mədəniyyət abidələri sıyahısına daxil edilmiş, həmçinin yaxın gələcəkdə Nic, Lahıc və Qırmızı qəsəbələrin də YUNESKO-nun mədəni abidələr siyahısına salınması, Nicdəki qədim alban kilsələrinin qorunması üçün burada tarix muzeyi və açıq havada etnoqrafiya qoruğu yaradılması nəzərdə tutulmuşdur. Bu tədbirlər Azərbaycanda yaşayan xalqlara dövlət diqqətinin daha bir faktıdır və Azərbaycan Dövlətinin Azərbaycanda yaşayan etnosların mənəvi mədəniyyətinin qorunması sahəsində ardıcıl və məqsədyönlü siyasətinin göstəricisidir.

Azərbaycanda ingiloy, xınalıq, qrız, buduq kimi etnik qruplar kompakt olaraq yalnız bu ölkədə yaşayırlar və dünyanın etnik xəritəsində yalnız Azərbaycanda qeydə alınmış nadir etnoslardandır. Bu etnosların hər biri Azərbaycan türkləri ilə uzunmüddətli birgə yaşayış şəraitində ümumi mədəni əlaqələrə sahib olmaqla yanaşı özünəməxsus fərqli mədəniyyətin elementlərini də qoruyub saxlamışlar. Bu xalqların hər birinin adət və inanclarının müqayisəli təhlillərlə araşdırılması xalqların mədəni müxtəlifliyinin qorunması baxımından aktual əhəmiyyət kəsb edir.

YUNESKO 2005-ci ildə Paris Konfransında mədəniyyətlərin müxtəlifliyini qorumaq yolunda bütün mədəniyyətlərin yerli xalqlarla bərabər azsaylı xalqların da mədəniyyətlərinin qorunması kimi konkret vəzifələr qəbul etmişdir. Ölkəmizin zəngin mənəvi irsini qorumaq, onu bəşəriyyətin ortaq mirası kimi dəyərləndirilməsinə nail olamq üçün Azərbaycan Respublikası da Prezident İlham Əliyevin 2009-cu il 26 noyabrda imzaladığı sənədlə YUNESKO-nun Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqinə dair Konvensiyasına qoşulmuşdur. Konvensiya azsaylı xalqların mədəni müxtəlifliyinin ənənəvi formalarının öyrənilməsi və nəsildən-nəsilə ötürülməsinin mühüm əhəmiyyətini qeyd edərək mədəniyyətlərin müxtəlifliyini qorumaq və bütün mədəniyyətlərin, həmçinin yerli xalqlarla bərabər azsaylı xalqların da mədəniyyətlərinin bərabər səviyyədə qorunması və gələcək nəsillərə ötürülməsi işində konkret vəzifələr irəli sürmüşdür. Mədəni müxtəlifliyin qorunması və genişləndirilməsi ilə bağlı qəbul edilən Konvensiya müddəalarında da qeyd edildiyi kimi bəşəriyyətin ortaq mirası olan mədəni müxtəliflik zəngin və rəngarəng dünya yaradır, xalqların və millətlərin inkişafına təkan verir. Azərbaycan belə zənginliyə sahib olan və bunu dəyərləndirən bir ölkədir. Respublikamızın Prezidenti İlham Əliyev ölkəmizin və dünyanın nadir etnoslarından sayılan xınalıqlarla görüşü zamanı bunu xüsusi vurğulayaraq

demişdir: ”Azərbaycan nə qədər zəngin ölkədir: həm təbii ehtiyatlar, həm gözəl təbiət, həm də insanların, millətlərin, etnik qrupların müxtəlifliyi.”[1]

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada əsas məqsəd XIX-XX əsrin əvvəllərində Azərbaycanın Şəki-Zaqatala, Quba-Xaçmaz, Astara-Lənkəran, Kəlbəcər-Laçın kimi bölgələrin əhalisinin, yəni Azərbaycan türkləri və onlarla birgə bu bölgələrdə kompakt şəkildə yaşayan avar, saxur, rutul, udi, ingiloy, tat, ləzgi, xınalıq, qrız, buduq, kürd, talış kimi etnosların toy, doğum, yas adətlərinin, xalq inanclarının və mərasim ənənələrinin təhlil edilməsi, onların adət və inanclarının bölgələr üzrə spesifik elementlərinin, həmçinin ortaq ənənələrinin qarşılıqlı-müqayisəli şəkildə araşdırılması nəticəsində müəyyənləşdirilməsidir. Bu məqsədlə dissertasiyada aşağıdakılar nəzərdə tutulmuşdur:

- Azərbaycan türkləri ilə bir sıra etnosların da yaşadığı Şəki-Zaqatala, Quba-Xaçmaz, Lənkəran-Astara, Kəlbəcər-Laçın kimi bolgələrdə XIX-XX əsrin əvvəllərində etnososial durum, tarixi-demoqrafik məlumat, bölgələrdə etnosların yayılma arealının müəyyənləşdirilməsi;
- Toy, adətlərinin tədqiqata cəlb etdiyimiz bölgələr üzrə müqayisəli araşdırılması və bir ərazidə qarışıq şəkildə yaşayan etnosların adət və inanclarının spesifik cəhətlərinin və ortaq ənənələrinin üzə çıxarılması;
- Doğum adətlərinin dini-magik strukturu, sonsuzluğa qarşı icra olunan ayinlərin regional xüsusiyyətlərinin təhlili;
- Dəfn-yas mərasimləri ilə bağlı adət-ənənələrin tarixi köklərinin araşdırılması, həmçinin ölüm, axirət dünyası ilə bağlı inanc və təsəvvürlər, ölümə işarət edən əlamətlər, ölümün qarşısını almaq üçün ovsunlar, ölüm anında və ölümdən sonra icra ediən ayinlər, ruh haqqında təsəvvürlər kimi arxaik elementlərin, dəfnə qədər, dəfn zamanı və dəfndən sonra icra olunan ayinlərin, yasdan çıxarma və miras qaydalarının regional xüsusiyyətlərinin üzə çıxarılması;
- Azərbaycan xalq inanclarının, XIX-XX əsrin əvvəllərində Azərbaycanda məişətdə qorunub saxlanmış ibtidai inamların və qədim dini-mifik təsəvvürlərin mənşəyinin araşdırılması;
- Xalq bayramları və mərasimlərinin tarixi köklərinin təhlili, xalq bayramlarında qədim mifoloжi dünyagörüşlərin izlərinin, qədim inanclar sistemi ilə bağlı artıq aradan çıxmış, unudulmuş bir çox ənənəvi mərasimlərin spesifik elementlərinin, xalq mərasimlərində etnik

---

[1] Qədim Xınalıq kəndinin sakinləri ilə görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin nitqi Xalq qəzeti, 2006, 8 oktyabr.

ənənələrin aşkar edilməsi;

- Azərbaycan türkləri və uzun müddət onlarla bir ərazidə qarışıq şəkildə yaşayan digər etnosların toy, doğum, yas mərasimləri ilə bağlı adət və inanclarının müqayisəli araşdırılması, hər bir etnosun spesifik, etnogenetik xüsusiyyətlərinin üzə çıxarılması ilə yanaşı bu etnosların ümumi, ortaq mədəniyyətlərinin, vahid tarixi köklərinin və etnomədəni bağlarının müəyyənləşdirilməsi;

- milli ideologiyanın ən mühüm istiqaməti kimi qiymətləndirilən milli-mənəvi dəyərlərin əsasını təşkil edən adət və inanclarımızın azərbaycançılıq aspektində araşdırılması.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan etnoqrafiyasında adət və inanclarının yeni bir səpgidə- Azərbaycan türkləri ilə bərabər Azərbaycanda yaşayan bir sıra etnosların adət və inanclarının qarşılıqlı-müqayisəli şəkildə tarixi-etnoqrafik təhlili xüsusi tədqiqat obyekti olmamışdır. İlk dəfə olaraq bu araşdırmada Azərbaycan türkləri ilə bərabər digər Azərbaycan etnoslarının da, o cümlədən udi, ingiloy, ləzgi, kürd, saxur, rutul, tat, talış, xınalıq, qrız, buduqların adət və inancları tarixi-etnoqrafik baxımdan hərtərəfli şəkildə tədqiqata cəlb olunmuş, qarşılıqlı-müqayisəli təhlil əsasında elmi-nəzəri nəticələr əldə edilmişdir. Dissertasiya işində ilk dəfə olaraq XIX əsrin sonu XX əsrin əvvəllərində azərbaycanlıların toy, doğum, dəfn-yas adətləri, xalq inancları Azərbaycanın polietnik bölgələri ilə bağlı etnoqrafik materiallar üzrə elmi-nəzəri baxımdan təhlil edilmiş, qədim adət və inamların mənşəyi, tarixi kökləri araşdırılmışdır. Tədqiqat işi Azərbaycan türkləri ilə birgə bir sıra etnosların da yaşadığı Şəki-Zaqatala, Quba-Xaçmaz, Lənkəran-Astara, Kəlbəcər-Laçın bölgələrinə aid müxtəlif, zəngin tarixi-etnoqrafik materialların kompleks və müqayisəli təhlili şəklində elmi tələblərə uyğun olaraq yazılmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycan etnoqrafiyasında adət və inancların öyrənilməsinə bu yeni yanaşma tərzi Azərbaycanın polietnik bölgələrində yaşayan etnoslara aid etnoqrafik materiallar əsasında azərbaycançılıq ideologiyası baxımından araşdırılmışdır. Azərbaycan türkləri ilə birgə avarlar, saxurlar, ingiloylar, udilər, tatlar, dağ yəhudiləri, ləzgilər, talışlar, "Şahdağ" etnik qrupuna aid edilən etnosların tədqiqata cəlb olunması azərbaycanlıların adət və inanclarının öyrənilməsi üzrə yazılan ilk ümumiləşdirici tədqiqatdır. Hər bir etnosun adət-ənənələri və xalq inanclarının spesifik cəhətləri ayrı-ayrılıqda, eyni zamanda müqayisəli təhlillərlə ümumiləşdirilərək tədqiq edilmiş, müxtəliflik şərh olunmaqla yanaşı ortaq ənənələr müəyyən edilmişdir. Hər bir etnik qrupun adət və inanclarının xüsusi olaraq tədqiqata cəlb edilməsi etnolsların spesifik

ənənələrinin üzə çıxarılması ilə yanaşı ölkəmizdə yaşayan etnosların ortaq mənəvi dəyərlərinin ümumiləşdirilməsinə də imkan verir. Uzun müddət birgə yaşayan bu etnoslar özlərinin spesifik xüsusiyyətlərini də müəyyən dərəcədə qoruyub saxlamaqla yanaşı ümumi məişətlərini də formalaşdırmışlar və bütövlükdə azərbaycanlıların mənəvi irsinin daha da zənginləməsinə öz töhfəsini vermişlər. Bu baxımdan tədqiqat işi Azərbaycan etnoslarının ümummilli xüsusiyyətlərinin, həmçinin Azərbaycan ərazisində minilliklərdən bəri formalaşan özünəməxsus zəngin mədəniyyətin dərin tarixi köklərinin üzə çıxarılması baxımından mühüm elmi əhəmiyyət kəsb edir.

Tədqiqat işində qədim inamlar tarixi-etnoqrafik cəhətdən hərtərəfli təhlil edilmiş, mövcud etnoqrafik ədəbiyyatda az rast gəlinən yuğ mərasimi, tanrıçılıq ideologiyası, dini-magik mərasimlər kimi məsələlərə geniş yer verilmiş, ilk dəfə dissertasiyada təhlil edilən bir sıra qədim adətlər, onların mahiyyəti araşdırılmışdır. Müqayisələr aparılaraq bir çox türk xalqlarının adət və inancları ilə bağlı etnoqrafik materiallar da tədqiqata cəlb edilərək, maraqlı elmi nəticələr əldə edilmişdir. Hazırda Azərbaycan türklərində artıq rast gəlinməyən və ya az rast gəlinən bir sıra arxaik türk ənənələrinin məhz Azərbaycanda yaşayan etnik qrupların adətlərində və inanclarında özünü büruzə verən elementləri də ilk dəfə olaraq üzə çıxarılaraq təhlil edilmişdir.

Tədqiqatın əsas istiqaməti Azərbaycanda yaşayan etnosların öz etnik xüsusiyyətlərini, dillərini, adət-ənənələrini, ünsiyyət formalarını, bir sözlə fərqliliklərini göstərməklə yanaşı, bütövlükdə azərbaycanlıların sosial mədəni birlik kimi formalaşmasını, oxşarlıqları müəyyən etmək olduğu üçün, dissertasiyada Azərbaycanın aparıcı etnosu olan Azərbaycan türkləri, həmçinin Azərbaycanda məskunlaşan digər etnosların hər birinin toy, doğum, yas mərasim adət və ənənələlərinə, xalq inanclarına ayrı-ayrılıqda yer verilərək etnosların spesifik xüsusiyyətləri, eyni zamanda onların mərasim ayinlərinin ümumi cəhətləri azərbaycançılıq nöqteyi-nəzərindən üzə çıxarılaraq təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiya araşdirma xarakterilə nəzəri-praktik səciyyə daşiyir və xalqin etnik-mədəni sisteminin öyrənilməsində böyük əhəmiyyətə malikdir. Dissertasiya Azərbaycanın bölgələrinin tarixi-etnoqrafik cəhətdən müqayisəli öyrənilməsində mövcud olan boşluğu qismən doldurur. Tədqiqat işi gələcək araşdırmalarda tədqiqatçılar üçün nəzəri istiqamət rolunu oynaya bilər. Tədqiqatın ən mühüm nəzəri-təcrübi əhəmiyyəti Azərbaycan dövlətinin milli siyasətinin əsas aspektlərini əks etdirməsindən ibarətdir. Dissertasiya işində toplanmış etnoqrafik materialların hərtərəfli təhlili əsasında əldə edilmiş elmi

nəticələr Azərbaycan etnoqrafiyasına dair ümumi xatakterli əsərlər yazılması zamanı, eyni zamanda Azərbaycanın etnik tarixi, Azərbaycan mənəvi mədəniyyəti problemlərinin tədqiqində istifadə oluna bilər. Dissertasiya işinin materiallarından həmçinin ali təhsil müəssisələrinin humanitar təmayüllü fakultələrində ixtisas kurslarının keçirilməsində, ali məktəblərdə elmi-metodik vəsait kimi istifadə oluna bilər. Eləcə də etnoqraflar, folklorşünaslar, tarixçilər bu əsərdən Azərbaycanın mənəvi mədəniyyət tarixinə, folkloruna və etnoqrafiyasına dair ümumiləşdirici əsərlərin yazılmasında mənbə kimi istifadə edə bilərlər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın əsas obyektini Azərbaycanın Şəki-Zaqatala, Quba-Xaçmaz, Astara-Lənkəran, Kəlbəcər-Laçın bölgələrinin XIX-XX əsrin əvəllərinə aid materialları təşkil edir. Bu bölgələrdə istər XIX əsrdə, istərsə də XX əsr boyu avarlar, saxurlar, rutullar, udilər, ingiloyar, ləzgləri, tatlar, xınalıqlar, buduqlar, qrızlar, talışlar, kürdlər Azərbaycan türkləri ilə bərabər yaşamışlar. Bu bölgələrdə yaşayan Azərbaycan türkləri və digər etnosların adət və inanclarının mövcud mənbələr, tarixi –etnoqrfik ədəbiyyat və çöl etnoqrfik materiallarından çıxış edərək qarşılıqlı-müqayisəli öyrənilməsi isə araşdırmanın predmetini təşkil edir. Tədqiqat obyekti kimi seçdiyimiz bölgələrdə yaşayan əhalinin toy, doğum, yas adətləri və xalq inanclarının qarşılıqlı müqayisələrlə araşdırılması, adət və inanclarda spesifik və ortaq ənənələrin müəyyən edilməsi əsas götürülüb işin predmetinin komponentləri kimi diqqət mərkəzində dayanır.

**Tədqiqatın mənbəşünaslıq bazası və işlənmə dərəcəsi.** Mövzunun mənbəşünaslıq bazası ilə bağlı qeyd etmək lazımdır ki, azərbaycanlıların adət və inanclarının öyrənilməsi ilə bağlı antik və orta əsr müəlliflərin əsərləri də mənbə kimi tədqiqata cəlb edilsə də, əsasən XIX əsr rus müəlliflərinin əsərləri və XIX əsrin sonu - XX əsrin əvvllərinə aid dövri nəşrlərdən, eləcə də XX əsrin əvvəllərindən dövrümüzədək nəşr olunan müxtəlif səciyyəli məcmuələr, təqvimlər, icmallardan elmi-tənqidi nöqteyi-nəzərdən yanaşılaraq istifadə edilmişdir. Mövzu araşdırılarkən etnoqrafik, eləcə də arxeoloжi, folklor materiallarından istifadə edilmiş, müxtəlif səciyyəli elmi-nəzəri, etnoqrafik səpgidə yazılmış Azərbaycan və xarici folklorşünas, etnoqaraf alimlərin əsərlərinə də istinad edilmişdir. Problein araşdırılması zamanı son illərin tarixi-etnoqrafik tədqiqatlarına daha çox üstünlük verilmiş, məsələyə müasir tələblər baxımından yanaşılmışdır. Tədqiqat işinin mənbəşünaslıq bazasının bir qismini də müəllif tərəfindən 1992-1998, 2000-2009-cu illərdə Şəki-Zaqatala, Quba-Xaçmaz, Lənkəran-Astara bölgələrindən toplanmış etnoqrafik çöl materialları təşkil edir.

Tədqiqata cəlb edilmiş XIX əsrə aid rus dilli mənbələrlə bağlı qeyd etmək lazımdır ki, rus müəllifləri Rusiya imperiyasının Qafqazdakı milli-müstəmləkə siyasətinə xidmət etdikləri üçün, Azərbaycanın tarixini, xüsusilə də mövcud etnik durumu saxtalaşdırmağa çalışırdılar. XIX əsrdə Rusiya imperiyası Azərbaycanın Şəki-Zaqatala, Quba-Xaçmaz, Lənkəran-Astara, Kəlbəcər-Laçın kimi bölgələrində xüsusi hərbi-strateжi əhəmiyyət daşıdığı üçün daha fəal dini-milli siyasət aparır, hər vasitə ilə bu bölgələrdə Azərbaycan türklərinin sayını az göstərməyə, Azərbaycan türklərini "tatar", "muğal", "padar", "tərəkəmə", "muğanlı", "türkmən" kimi müxtəlif adlar altında parçalayaraq statistikada dolaşıqlıq yaratmağa çalışırdılar. Əslində bu etnik adların hər biri Azərbaycan türklərinə aid idi. Rusiya imperiya müəllifləri Azərbaycan türklərinin Səlcuq, Teymur işqalları dövründən etibarən bu bölgələrə gəldiyini sübut etməyə çalışaraq təhriflərə yol verirdilər. XIX əsr rus dilli müəlliflərin təhriflərə və yanlışlıqlara yol verməsinin bir səbəbi də onların Azərbaycan dilini bilmədikləri ilə əlaqədar idi. Onlar yerli əhalinin məişətini yalnız kənardan müşahidə etməklə kifayətlənirdilər. Lakin bütün bunlara baxmayaraq XIX rus dilli ədəbiyyatlarda Azərbaycanın XIX-XX əsrin əvvəllərinə aid məişət ənənələrinin təsvirləri, müxtəlif adətlər və xalq inancları ilə bağlı maraqlı məlumatlar mövcuddur. XIX-XX əsr Şəki-Zaqatala bölgəsi, əhalisi, adət və ənənələri, toy və dəfn mərasimləri, folkloru, uşaq oyunları, vərəsəlik hüquqları haqda İ.O.Konstantinov, A.Fon Plotto, A.F.Paserbski, İ.P.Lineviç, D.E.Zubarev, N.F.Dubrovin, A.Q. Yanovski, İ.L.Seqal kimi müəlliflərin əsərlərində məlumatlar mövcuddur. XIX əsr müəlliflərindən S.P.Zelinski Azərbaycanın Zəngəzur bölgəsi barədə məlumat verir. Quba-Xaçmaz, Lənkəran bölgələrinin etnik tərkibi, yerli əhalinin inamları barədə XIX əsrin rus şərqşünası İ.N. Berezinin məlumatları diqqəti cəlb edir. XIX əsr rus müəlliflərindən V.Leqkobıtov, F.Şnitnikov, P.Q.Butkov, P.V. Kotlyarovski, P.N.Yaqodinski, S.B.Bronevski, M.M.Kovalevski və b. da Quba bölgəsinin etnoqrafiyası, etnosları, yerli əhalinin qədim inancları, ovsunları, geyimi, kəbin və toy adətləri, ailə varidatının bölünməsi, məişətdə mövcud olan hüquq normaları, miras bölgüsü, qan qohumluğu, nəsli münasibətlər və s. kimi bəzi məişət adətləri haqda məlumat vermişdir. Azərbaycanın Lənkəran bölgəsinin etnoqrafiyası, əhalisi haqda XIX əsr rus müəlliflərindən D.A.Kistenev, P.Zubov, V.Leqkobıtov P.P.Zablotskiy-Desyatovskiy, P.F.Riss məlumat vermişlər.

XIX əsrdə Qafqazla bağlı rus mətbuatında Azərbaycan müəllifləri də Azərbaycan etnoqrafiyası ilə bağlı məqalələr dərc etdirirdilər. Məmmədhəsən Əfəndiyev, Mir Həsən Vəzirov Azərbaycan türklərinin ay və günəş kultu, həyat ağacı, ovsun kimi arxaik inamları, bədnəzərə qarşı icra olunan bir sıra qədim ayinləri haqqında məlumat vermişlər. Məmmədhəsən Əfəndiyev Lahıcın adət-ənənələri, etiqadları,əhali və təsərrüfatı haqqında statistik məlumatlar və s. haqqında zəngin material toplamışdır. XIX əsrin sonu – XX əsrin əvvəllərində Şəki bölgəsinin folklor və etnoqrafiyanın öyrənilməsində əvəzsiz xidmətləri olan Rəşid bəy Əfəndiyev Şəki, həmçinin ətraf bölgələrin toyları, xalq inamları, türkəçarə və s.arxaik ənənələri ilə bağlı materiallar toplayıb nəşr etdirmişdir. Udi mənşəli Mixail Beжanov isə XIX əsrdə udilərin mənşəyi, inamları, eyni zamanda qədim adət-ənənələrinin geniş təsvirini vermişdir. XIX əsr Lənkəran bölgəsi əhalisinin, həm Azərbaycan türklərinin, həm də talışların şifahi xalq yaradıcılığı nümunələrinin toplanmasında Teymur bəy Bayraməlibəyovun mühüm xidmətləri olmuşdur. O, Lənkəran qəzasında yaşayan talışların kosmoqonik inanclarını, türkəçarə müalicə üsulları və dəfnetmə mərasimləri barədə maraqlı məlumatlar vermişdir.

XX əsrin əvvəllərində Laçın-Kəlbəcər bölgəsinin etnoqrafiyası, maddi və mənəvi mədəniyyəti, o cümlədən dini inamları, oyun və əyləncələrinə ilə bağlı A.Bukşpan, E.Pçelinanın, xüsusilə də Azərbaycanın ilk milli etnoqraflarından Ələsgər Ələkbərovun araşdırmaları mövcuddur. XX əsr müəlliflərindən B.V.Miller, Q.F.Çursin talışların mənşəyi və inanc yerlərindən, həmçinin kürdlərin etnoqrafiyasından bəhs etmişdir. Həmçinin B.V.Miller, K.Kurdov Azərbaycan tatlarının etnoqrafiyası, yayılma arealları haqqında məlumat versələr də problemin işlənmə dərəcəsi ilə bağlı qeyd etmək lazımdır ki, Azərbaycan türkləri ilə Azərbaycanda yaşayan digər etnosların adət-ənənələri və inancları qarşılıqlı-müqayisəsi şəklində indiyədək tədqiqata cəlb olunmamış, Azərbaycanda yaşayan avar, udi, saxur, rutul, ingiloy, talış, tat, xınalıq kimi etnosların adət və inanclarının qarşılıqlı–müqayisəli araşdırılmasına həsr olunmuş ümumiləşdirici mövzu xüsusi tədqiqat obyekti olmamış, mövcud tədqiqatlarda problem kompleks halda öyrənilməmişdir. Qeyd etmək lazımdır ki, XX əsr Azərbaycan etnoqrafiyasında akad. T.Ə.Bünyadovun, Q.Ə.Qeybullayevin, H.A.Quliyevin, E.Ə.Kərimovun, R.Babayevanın, Q.C.Cavadovun, N.M.Quliyevanın, Q.H.Qədirzadənin, Ə.Ə.Məmmədlinin, A.Mustafayevin, V.Buduqlu-Piriyev, Q.C.Cavadov, M.Hacıyev, M.O.Abbasova, M.N.Şahbazov, M.M.Əliyev, N.Quliyeva, Ş.Əliyev, Ə.Ə.Məmmədli, R.Əfəndiyeva, R.Ə.Bəxtiyarova, R.Q.Quliyeva, N.M. Quliyeva, T.Ş. Şahbazovun

Azərbaycan məişətindəki arxaik inamlar, ayinlər, bir çox mərasimlərin, adətlərin, ayinlərin mənşəyi, həmçinin Azərbaycanda etnik durum, ayrı-ayrı etnosların etnik tarixi, mənəvi mədəniyyəti, adət-ənənələri, etnik qrupların etnomədəni inkişafı ilə bağlı dəyərli tarixi-etnoqrafik araşdırmaları vardır. [1] Tədqiqatın ayrı-ayrı bölmələrində, problemin öyrənilməsi məsələlərində onlardan bəhs olumuşdur.

**Tədqiqatın xronoloжi çərçivəsi.** Əsərin xronoloжi çərçivəsinin əsasən XIX əsrin sonu - XX əsrin əvvəllərini əhatə etməsinə baxmayaraq, Azərbaycanda qədim adətlərin və inamların mənşəyini tarixi-etnoqrafik baxımdan təhlil etmək, elmi-nəzəri əsaslarını müəyyənləşdirmək məqsədilə bir çox tarixi dövrlərlə də bağlı mənbələrə müraciət edilmişdir. Topladarımız etnoqrafik çöl materialları XIX əsrin sonu - XX əsrin

---

[1] Bünyadov T.Ə. Əfsanələr diyarı (Xınalıq) //Azərbaycan, 1987, N 2. Bünyadov T.Ə. Novruz bayramının tarixi kökləri. //" İşiğa döğru" jurnalı. Bakı, 2004. Qeybullayev Q.Ə. Azərbaycanda ailə və nikah (XIX əsr və XX əsrin əvvəlləri). Bakı, "Elm",1994. Quliyev H.A. Məişətimizdə adət və ənənənər. Bakı, "Azərnəşr", 1976. Гулиев Г.А. Азербайджанский народный обычай (свадебные и похоронные обряды). Баку,1972. Kərimov E.Ə. Azərbaycanda etnik durum: 1920-1930-cu illər // Tarix və onun problemləri jurnalı. Bakı, 1997. Babayeva R. Quba şəhərinin toy adətləri //Azərbaycan etnoqrafiyasına aid materiallar. №1. Bakı, Azərb. EA nəşriyyatı,1946. Cavadov Q.C. Azərbaycanda el köməyi adətləri. Bakı, Azərnəşr,1993. Quliyeva N.M. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti. Bakı, Elm, 2005. Qədirzadə H.İ. Ailə və məişətilə bağlı adətlər, inamlar, etnogenetik əlqələr. Bakı, Elm, 2003. Mustafayev A.N. İngiloyların maddi mədəniyyəti, Bakı, Caşıoğlu, 2005. Buduqlu-PiriyevV. Buduq və buduqlular. Bakı, 1994. Cavadov Q.C., Hüseynov R. Udilər. Bakı,1996. Cavadov Q. Azərbaycanda yaşayan milli azlıqlar və azsaylı xalqlar. Bakı, 2000. Cavadov Q.Talışlar. Bakı, 2004. Hacıyev M.İ.Toy-düyün xəzinəmizdən. Bakı, 1995. Аббасова М. О. Семейные обряды лезгин Азербайджана (XIX - нач. XX в.(этнографическое изучение северо-восточной зоны Азербайджана). Автореф дис.. канд. ист. наук. М., 1989. Şahbazov M.N. Şahdağ etnik qrupunda nikah və toy // Azərbaycan SSR EA Məruzələri. N 8. Bakı,1974. Quliyeva N. Azərbaycan tatlarının ailə məiəşti və mənəvi mədəniyyəti. Bakı, Nurlan, 2005. Əliyev M.M. Azərbaycan tatları. Bakı, MBM, 2006. Əliyev Ş. Şimal-Qərbi Azərbaycan: ingiloylar. Bakı, Təhsil, 2007. Мамедли А.Э. Особенности современных этнокультурных процессов в Азербайджане. Автореф. Дис.. д-ра наук по истории. Баку, 2011. Мамедли А. Э. Современные этнокультурные процессы в Азербайджане: основные тенденции и перспективы. Баку, Университет Хазар, 2008. Эфендиева Р. Традиционная погребально-поминальная обрядность азербайджанцев (конец XIX-нач. XXвв.). Баку, 2001. Bəxtiyarova R.Ə. Azərbaycanda ağac ayini. Bakı, Araz, 2002. Кулиева Р.Г. Культ камня в Азербайджане. Баку, Элм, 2007. Quliyeva N.M. Abşeronluların dəfn adətlərinə dair // Tarix və onun problemləri jurnalı. N4. Bakı, BDU-nun nəşriyyatı, 1998. Şahbazov T.Ş. Azərbaycanda islamaqədərki inamlar (Lənkəran-Astara bölgəsinin materialları əsasında tarixi-etnoqrafik tədqiqat. Bakı, "Xəzər Universiteti", 2008.

əvvəlləri ilə bağlı mövcud elmi ədəbiyyat və arxeoloжi tədqiqatların nəticələrinin elmi təhlili və şərhi də tarixilik baxımından araşdırılmışdır.

**Tədqiqatın nəzəri-metodoloжi əsası.** Dissertasiya işinin nəzəri və metodoloжi əsasını təsviri, tarixi-müqayisəli, istinad olunan mənbələrə elmi-tənqidi yanaşma kimi metodlar təşkil edir. Tədqiqat prosesində tarixi-müqayisəli və nəzəri-tipoloжi metodlara istinad edilmiş, problemin öyrənilməsi ilə əlaqədar olan nəzəri təhlil və elmi ümumiləşdirmələrdən istifadə olunmuşdur. Dissertasiyanın nəzəri əsasını Azərbaycan xalqının Ümumilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş, Azərbaycan xalqının bütövlüyünü ifadə edən və bütün azərbaycanlıların vahid ideya ətrafında birləşməsini şərtləndirən azərbaycancılıq ideologiyası təşkil edir. Etnik mənsubiyyətindən asılı olmayaraq Azərbaycan Respublikasının bütün azərbaycanlıların milli sərvəti, bütün soydaşlarımızın vətəni hesab edilməsi azərbaycançılığın mühüm meyarlarındandır. Azərbaycançılıq ideologiyası Azərbaycan xalqının etnik-milli mənşəyinin həyat tərzində, məişətində, mərasimlərində saxlanılan əlamətlərdə, eyni zamanda Azərbaycan ənənələrinin ən müxtəlif elementlərini özündə birləşdirməsindədir.

**Dissertasiyanın aprobasiyası.** Müdafiəyə təqdim edilmiş dissertasiya uzunmüddətli araşdırmaların nəticəsidir və 2002-2010-cu illərdə yazılmışdır. Dissertasiya AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Müasir dövr etnoqarfiyası" şöbəsində hazırlanmışdır. Tədqiqat işinin əsas nəticələri və tezisləri müəllifin mövzuya aid məqalələrində, həmçinin iki monoqrafiyasında nəşr edilmişdir. İşin əsas məzmunu məcmuələrdə, müxtəlif beynəlxalq konfranslardakı çıxışlarda, AAK-ın tövsiyyə etdiyi жurnallarda və xarici ölkə nəşrlərində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, beş fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat və məlumatçıların siyahısından, habelə tədqiqat işinə əlavə edilmiş illüstrativ materiallardan ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı və əhəmiyyəti əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi geniş şərh edilmişdir. Tədqiqatın məqsəd və vəzifələri problem səciyyəli bəndlər üzrə verilmiş, dissertasiyanın metodoloжi əsası, elmi yeniliyi, təcrübi əhəmiyyəti və aprobasiyası göstərilmişdir.

Dissertasiyanın **"XIX-XX əsrin əvvəllərində Azərbaycanda etnososial vəziyyət"** adlanan I fəsli iki yarımbaşığa bölünərək təhlil edilmişdir. **"Bölgələrin ümumi səciyyəsi, etnik tərkibi, statistik, tarixi-demoqrafik məlumat"** adlanan birinci yarımbaşlıqda Şəki-Zaqatala,

Quba-Xaşmaz, Lənkəran-Astara, Kəlbəcər-Laçın bölgələrinin ümumi səciyyəsi, etnik tərkibi, bölgələrin əhalisi haqqında ətraflı statistik, tarixi-demoqrafik məlumat verilmişdir. Azərbaycanın tədqiqata cəlb etdiyimiz bu bölgələrində XIX-XX əsrin əvvəllərində olduğu kimi, hazırda da Azərbaycan türkləri ilə bərabər avar, saxur, udi, ingiloy, tat, talış, yəhudi, xınalıq, buduq, qrız kimi etnoslar yaşamaqdadırlar. 1999-ci il göstəricilərinə görə Azərbaycan Respublikasında qeydə alınmış 7953,4 min nəfər əhalinin 7205,5 min nəfəri - 90,6%-ni Azərbaycan türkləri, 76,8 min nəfərini - 1,0%-ni talışlar, 178 min nəfərini -2,2%-ni ləzgilər, 50,9 min nəfərini - 0,6%-ni avarlar, 15,9 min nəfərini - 0,2%-ni saxurlar, 8,9 min nəfərini - 0,1%-ni yahudilər, 13,1 min nəfərini - 0,2%-ni kürdlər, 4,1 min nəfərini - 0,05%-ni udilər, 10,9 min nəfərini - 0,13%-ni tatlar və b. təşkil etmişlər.[1] Təxmini hesablamalara görə xınalıqların sayı 2,5 min nəfər, buduqların sayı 15min nəfər, qrızların sayı isə 2 min nəfərdir. 1999-cu il göstəricilərinə görə ingiloyların sayı 14, 9 min nəfərdir.[2] Bu etnoslardan ləzgilər, tatlar, dağ yəhudiləri, xınalıqlar, qrızlar, buduqlar və b. Azərbaycanın Quba-Xaçmaz bölgəsində, avarlar, saxurlar, udilər, ingiloylar və b. Şəki-Zaqatala bölgəsində, talışlar Lənkəran-Astara bölgəsində Azərbaycan türkləri ilə birgə yaşayırlar. Kürdlər isə 1993-cilədək, ermənilərin bu Azərbaycan torpaqlarını işğal etməsinədək Kəlbəcər-Laçın bölgəsində yaşamışlar. İşğal nəticəsində Azərbaycan türkləri ilə bərabər kürdlər də yaşadıqları torpaqlardan qovularaq didərgin salınmış, respublikanın ayrı-arı rayonlarına səpələnməyə məcbur olmuşlar.

Bu bölümdə Azərbaycanın polietnik bölgələrindən sayılan Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran-Astara, Kəlbəcər-Laçın bölgələrinin XIX əsrin sonu –XX əsrin əvvəllərində rəngarəng etnik tərkibi haqqında geniş məlumat verilmiş, XIX-XX əsrin əvvəllərində Azərbaycanda mövcud olan etnososioloжi vəziyyət təhlil edilmişdir. XIX əsrdə Rusiya imperiyasının Azərbaycanda apardığı inzibati ərazi bölgüsü nəticəsində yaradılan Quba, Car-Balakən, Lənkəran, Zəngəzur qəzalarının ümumi səciyyəsi, etnik tərkibi barədə məlumat verilmişdir. Bu yarımbaşlıqda XIX-XX əsrin əvvəllərində Azərbaycan türkləri ilə birgə Quba qəzasında yaşayan ləzgilər, tatlar, dağ yəhudiləri, xınalıqlar, qrızlar, buduqlar, Car-Balakən qəzasında avarlar, saxurlar, udilər, ingiloylar, Lənkəran qəzasında talışlar, Zəngəzur qəzasında kürdlər kimi etnoslarlarla bağlı XIX-XX əsrin əvvəllərinədək

---

1 Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007, s.95.
2 Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007, s.107

olan statistik, tarixi-demoqrafik məlumatlara yer verilmişdir. Azərbaycanda məskun olan etnosların hər biri bu ərazidəki təşəkkülü mərhələsində uzun bir yol keçərək bu zaman çərçivəsində tarixin müxtəlif mərhələlərində etnoslararası inteqrasiyanın əsasını təşkil edən sosial-iqtisadi və siyasi birlik nümayiş etdirmişlər. Uzun illər boyu Azərbaycan türkləri ilə sıx vəhdətdə yaşamaları və qarşılıqlı təsir və zənginləşmə nəticəsində bu etnosların hər birinin mədəniyyəti ümumazərbaycan mədəniyyətinin tərkib hissəsinə çevrilmiş, ölkədə vahid ənənəvi mədəniyyət formalaşmışdır.

Birinci fəslin ikinci yarımbaşlığı "**XIX-XX əsrin əvvəllərində Azərbaycanda etnosların yayılma arealı, etnoqenetik əlaqələr**" adlanır. Bu yarımbaşlıqda avarlar, saxurlar, udilər, ingiloylar, ləzgilər, tatlar, dağ yəhudiləri, xınalıqlar, qrızlar, buduqlar, talışlar, kürdlərin XIX-XX əsrin əvvəllərində Azərbaycanın Şəki-Zaqatala, Quba-Xaşmaz, Lənkıran-Astara, Kəlbəcər-Laçın bölgələrində məskunlaşma tarixi, mənşəyi və yayılma arealı təhlil edilmişdir. Bu yarımbaşlıqda tədqiqata cəlb edilən bölgələrdə çox erkən dövrlərdən etibarən məskun olan qədim türkmənşəli tayfaların izləri araşdırılaraq, bu torpaqların çox qədim dövrlərdən bəri türkmənşəli tayfalarının məskəni olduğunu göstərən yerli əhalinin öz mənşəyi ilə bağlı qədim mifik rəvayətləri, mövcud mənbələr və yerli toponimlər əsasında təhlil edilmişdir. Həmçinin XIX əsrdə Rusiya imperiyasının Azərbaycanda apardığı milli müstəmləkə siyasəti, imperiyanın hər vasitə ilə bu bölgələrdə Azərbaycan türklərinin sayını az göstərmək, Azərbaycanın qədim türk yurdu olmasını hər vasitə ilə "unutdurmaq" cəhdlərinin mahiyyətinə yer verilmişdir. Azərbaycanın bu tarixi-etnoqrafik bölgələrində etnosların məskunlaşma tarixi və yayılma arealı təhlil edilməklə yanaşı, onların etnoqenetik və etnomədəni əlaqələri geniş araşdırılmışdır. Bu etnoqenetik və etnomədəni əlaqələrin dərin kökləri, şübhəsiz ki, əhalinin mənəvi mədəniyyətində, adət və inanclarında da özünü büruzə vermişdir ki, bu da bu gün torpaqlarımızda Azərbaycan türkləri ilə birgə yaşayan avarlar, ingiloylar, udilər, ləzgilər, talışlar, tatlar, xınalıqlar, buduqlar, hapıtlar, saxurlar, rutulların öz etnik adlarını və etnik spesifikliyini qorumaqla bərabər özlərini həm də vahid Azərbaycan xalqının tərkib hissəsi hesab etmələrində və azərbaycançılıq ideologiyası ətrafında birləşməsində özünü göstərməkdədir.

Dissertasiyanın "**XIX-XX əsrin əvvəllərində azərbaycanlıların toy adətlərində spesfik cəhətlər və ortaq ənənələr** " adlanan ikinci fəslində XIX-XX əsrin əvvəllərində Azərbaycanın zəngin simvolika, folklor, oyunlar, rəqslər, tamaşa-oyunlar, zorxanalarla müşayət olunan toy mərasimləri tarixi-etnoqrafik materiallar əsasında təhlil edilmişdir.

Xalqın keçmişini, mənəvi mədəniyyətini, dünyagörüşünü tədqiq etmək üçün toy mərasimləri ən qiymətli mənbələrdən biridir. İnsan həyatının mühüm mərhələlərindən birini əks etdirən toy mərasimləri özünəməxsus adət-ənənə və ayinlərlə müşayiət olunur. Xalqın minilliklər boyu mövcud olan mədəni irsini, qədim dünyagörüşlərinin qalıqlarını, yaşayış tərzini, həyat təcrübəsini məhz toy mərasimlərində ardıcıl izləmək mümkündür. Azərbaycan tarixən etnik rəngarəngliyi ilə seçildiyi kimi toy mərasimlərindəki adət və ayinlərinin rəngarəngliyi baxımından da zəngindir. Uzun müddət yanaşı yaşama və bir-birinin mənəvi mədəniyyətlərindən təsirlənmələr həm Azərbaycan türklərinin, həm də digər Azərbaycan etnoslarının adət-ənənələrində, o cümlədən toy mərasimlərində özünəməxsus çalarlar yaratmışdır. Tədqiqata cəlb etdiyimiz bölgələrin etnik cəhətdən rəngarəng olması toy mərasimlərinin spesifik regional xüsusiyyətlərinin də formalaşmasına səbəb olmuşdur. Toy mərasim ənənələrinin regional baxımdan təhlil edilməsi bütövlükdə Azərbaycan mənəvi mədəniyyətinin spesifik xüsusiyyətlərini, mərhələ və təşəkkül proseslərini hərtərəfli izləməyə imkan yaratmışdır. Odur ki, bu fəsil üç yarımbaşlığa bölünmüşdür.

Fəslin "**Azərbaycan türklərinin toy adətlərinin regional xüsusiyyətləri"** adlanan birinci yarımbaşlığında XIX-XX əsrin əvvəllərində Azərbaycan türklərinin toy adətlərinin tarixi-etnoqrafik bölgələr üzrə regional xüsusiyyətlərini özündə əks etdirən, "yançı", "balboğan", "başıbütöv", "dayna", "toybaşı", "toyşinas", "cilovdar", "çardaqçı", "ayaqçı" və s. kimi spesifik iştirakçıları olan toy mərasimlərinin "qızbəyənmə", "qızgüddü", "ağızbilmə", "çörəkkəsdi", "xatircəmlik", "ağsaqqal aşı", "əl öpdü", "üzük-fitə" , "sini süfrə", "bağbaşı", kimi bir çox regional adətləri təhlil edimişdir.

Tədqiqata cəlb etdiyimiz bölgələrdə yaşayan Azərbaycan türklərinin toy mərasimlərində Azərbaycanın hər yerində olduğu kimi "qız bəyənmə", "elçilik", "nişan", "paltarkəsdi", "xınayaxdı", "toy", "duvaqqapma", "üzəçıxdı", "ayaqaçdı" kimi mərhələlər icra olunsa da bu mərasimlər müəyyən regional xüsusiyyətlərə də malikdir. Azərbaycanda adətən toy-nişan məclislərinə, bahar mərasimlərinə təsadüf edən qız bəyənmə adətinin tədqiqata cəlb etdiyimiz bölgələrdə XI-XX əsrin əvvəllərində bir sıra qədim və spesifik ənənələri qalmaqda idi. Bu bölümdə XIX əsrdə Şəki-Zaqatala, Kəlbəcər bölgələrində Azərbaycanda ən qədim qızbəyənmə ənənələrindən olan gənclərin toy, bayram mərasimlərində bir-birini bəyəndikləri zaman qırmızı alma verməsi adəti təhlil edilmiş, Azərbaycan folklor nümunələrində "toy alması", "yar alması" kimi yer alan alma atma ənənəsinin

sevgi, qismət, bəyənilmək simvolu kimi Azərbaycan toy mərasimlərindəki özünəməxsus yeri müəyyən edilmişdir. Azərbaycan folkorunda qismət, sevgi, əbədiyyət simvolu olan alma ilə bağlı bir çox spesifik adətlərin mahiyyəti araşdırılmış, türk dünyasının bir çox xalqları ilə müqayisələr aparılmışdır. Qismət, sevgiliyə qovuşma simvolu kimi alma bir çox türkdilli xalqların da toy mərasimlərində mövcuddur. Disertasiyada yeri gəldikcə bununla bağlı nümumələr verilmişdir. Ümumiyyətlə, Azərbaycan evlilik mərasimlərində alma toya qədər, toy və toydan sonra müxtəlif rəmzi mənalar daşımış, evlənməyə razılıq əlaməti olmaqla bərabər, qismət, övlad, əbədilik kimi rəmzi mənaları da ifadə etmişdir. Azərbaycan folklor nümunələrində qırmızı alma həm də övlad simvoludur. Azərbaycan toy mərasimlərini vacib atributlarından olan və həyat ağacını ifadə edən toy şaxında qırmızı alma mütləq olmalı idi. Keçmişdə Quba-Xaçmaz bölgəsində də bəylə gəlinin evlənmədən öncə alma ağacı əkmək ənənəsi var idi. Burada alma bərəkət, övlad arzusunu ifadə edirdi. Alma bütün türk xalqlarında övlad simvoludur. Türk xalq inamına görə almalı yer döl tutmağa müsait hikmətli yerdir“Manas” dastanında övladının olması üçün “almalıqda yuvarlanmaq” tövsiyə edilir.[1]

Dissertasiyada Azərbaycanda təbiətin, yaşıllıq ilahəsinin şərəfinə keçirilən qədim ayinlərin izlərini daşıyan “Yaşıl yarpaq, qızılgül”, ”Cəhribəyim”, “Gül verdi” “Mərəkə”, Ukur”, “Qorqud” kimi bir sıra qədim bahar mərasimlərində icra olunan spesifik qızbəyənmə adətləri təhlil edilmiş, həmçinin görüçü və ya araçı vasitəsilə qızbəyənəmə adətlərinin bölgələr üzrə bir sıra maraqlı nümunələri izlənmişdir.

Bu yarımbaşlıqda Azərbaycanın müxtəlif bölgələrində “diləmə”, “ağız bilmə”, “sözaldı”, “hana”, “hanqa”, “hə-yox”,”çorəkkəsmə”, xatircəmlik”, ”razılaşma” kimi adlarla tanınan, bəzən elçilik zamanı ağsaqqalların xalq arasında “ələfdi” kimi tələffüz olunan “ əlverdi” və ya “əl öpdü” mərasiminin icra edildiyi spesifik elçilik öncəsi razılıq adətləri təhlil edilmişdir. Türk xalqlarına məxsus olan “əl öpdü” adətinin Altay türklərində də mövcud olması və “kol quduжu” adlanması, tuvinlərdə isə bu bu adətin “kaldak” adlanması mənbələrə əsasən təhlil edilmişdir.[2]Bu yarımbaşlıqda həmçinin Azərbaycan toy mərasimlərinin Lənkəran-Astara bölgəsində "qızgüddü", "hə alma”, hırdaboy", "bişi-bişirmə", Laçın

---

[1] Kalafat Y. Balkanlardan Uluğ Türkistana Türk Halk İnancları. II. Ankara, 2005. s.140

[2] Шаниязов К.Ш. к этнической истории узбекского народа. Ташкент, 1974,с. 52.

bölgəsində "ad eləmək", Şəki-Zaqatala bölgəsində "bəlgə" və s. kimi adlarla bilinən elçilik və nişan mərasimlərinin regional və spesifik xüsusiyyətləri araşdırılmışdır. Elçilik zamanı Azərbaycanın əksər bölgələrində razılıq simvolu kimi şirin çay içildiyi halda, Şəki-Zaqatala və Quba-Xaçmaz bölgələri üçün elçilərin çörək kəsməsi xarakterik idi. Şahdağ xalqlarında da elçilik mərasimi "çörəkkəsdi" adlanırdı. Çörəkkəsmə ənənəsi azərbaycanlıların bu günədək qorunub saxlanmış ən qədim, ən müqəddəs adətlərindəndir və bu ayinin icrası zamanı verilmiş söz pozulmaz and sayılır. Azərbaycanda olduğu kimi bütün türk xalqlarında birgə çörək kəsmək dostluğun başlanğıcı, qan qardaşlığından da üstün bir yaxınlıq deməkdir. Bu andicmə mərasiminin izlərini bir çox dastanlarda, o cümlədən türk xalqlarının ortaq mirası sayılan "Manas" dastanında da görmək mümkündür. Bu yarımbaşlıqda toy mərasimlərinin elçilik mərhələsindən tutmuş gəlin gətirilməsinədək bütün mərhələlərində mühüm yer tutan "çörəkkəsmə" adətinin bölgələr üzrə müxtəlif ayrıntıları fəsildə ətraflı təhlil edilmiş, çörəyin söz kəsmək, dostluq, bərəkət simvolu olmaqla bərabər şər qüvvələrə qarşı qoruyucu özəlliyini əks etdirən bir sıra adətlərə də yer verilmişdir. Toyqabağı icra olunan "süd pulu", "yol pulu", "toy xərci" kimi adlarla bilinən oğlan evinin qız evinə aid xərclərini ödəməsi adətinin regional xüsusiyyətləri verilməklə yanaşı türk dünyasının bir çox türk xalqları ilə də paralellər aparılmışdır. Kərkük türkmənlərində "yol pulu" adəti "yol" və ya "ana yolu" adlanırdı..[1] Türkmənlərdə bu adət "süt xakı", qaraqalpaqlarda "ana sütü haqqı", başqırdlarda "sot haqqı", altaylarda "süt əmcək" və ya "əmcək-tanq südi", qazaxlarda "süt hakı" adlanırdı. [2] Azərbaycanın bəzi yerlərində, xüsusilə Quba-Xaçmaz bölgəsinin bəzi kəndlərində də "süd pulu" adətinə altaylarda olduğu kimi "əmcək pulu" deyilirdi. Bəzən "süd pulu" "qız pulu", Laçın rayonunda isə "yol kəsdi" də adlanırdı.[3] Azərbaycanın demək olar ki, bütün bölgələrində riayət olunan "toy xərci" adəti bölgələrdə fərqli, məsələn, Abşeronda "mitmax xərci", Qubada "tabaq qırağı", Yardımlıda "kəsmət", Muğan bölgəsində "şələmzər", Gədəbəy, Kəlbəcər, Naxçıvan bölgələrində "ağamat" və ya "ağammətlik" kimi adlarla da bilinir. Yarımbaşlıqda nişan mərasimindən sonra icra olunan "bəylik", "qənd başı xonçası" "sini süfrə", "bağbaşı" kimi

---

1 Paşayev Q. İraq-Türkman folkloru. Bakı, 1992, s.48.
2 Qeybullayev Q.Ə. Azərbaycanda ailə və nigah (XIX əsr və XX əsrin əvvəlləri). I hissə. Bakı, Elm, 1994. s.359.
3 Quliyeva N.M. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti. Bakı, Elm, 2005, s.197.

bir çox lokal toy mərasimləri də təhlil edilmişdir. Bu bölmədə toy mərasimlərində icra olunan "bəy övrəzi", "odun əvrəzi", "qız əvrəzi", həmçinin, xalqın özünəməxsus qarşılıqlı yardım ənənələrindən biri olan "mürvət toyu" kimi qədim adətlərə də yer verilmiş, elliklə köməklik adətlərinin, bölgələr üzrə müəyyən lokal xüsusiyyətləri üzə çıxarılmışdır. Azərbaycan toy mərasimlərinin özünəməxsus bir mərhələsi olan toya dəvət adəti də ayrı-ayrı bölgələr üzrə bir sıra fərqli elementlərə malik olmuşdur. Azərbayca toylarında dəvət üçün xüsusi adamlar ayrılırdı və bu şəxs bölgələrə görə "salovçu", "xandaçı", "təklifçi", "xəlfə", "eladi", "çağırışçı" kimi adlar daşıyırdı. Toya dəvət edən şəxsin dəvət etdiyi ailəyə "şirinlik", bəzi bölgələrdə isə məsələn, Şəki-Zaqatala bölgəsinin bəzi kəndlərində, Naxçıvanın Şərur bölgəsinin də bəzi kəndlərində qırmızı alma verməsi adəti olmuşdur. Nəticə etibarilə bu adətlərin mahiyyəti eyni olsa da onların icra tərzi və adlarında regional xüsusiyyətlər müşahidə olunduğu ifadə edilmişdir.

Yarımbaşlıqda bölgələr üzrə "xına gecəsi", "qız yığnağı" "küp yellənməsi" kimi müxtəlif adlarla bilinən xna toylarının fərqli icra tərzlərinə də yer verilməklə bərabər bu mərasimlərdə bir çox türk eposlarında rast gəinən qız məclislərinin izləri də araşdırılmışdır. Xna toylarında qızların xna yaxması, geyimlərinə içi mixəkli "şanta" taxması, gizlicə gəlinin örtüyünə yaşıl rəngli sap keçirməsi kimi qədim ayinlərin mahiyyəti araşdırılmış, yaşıllıqla eyniləşdirilən bu ayinlərin gənclik və məhsuldarlıq, həmçinin yeni ailənin simvolu olduğu ifadə edilmişdir.

Bu başlıqda XIX-XX əsrin əvvəllərində Azərbaycan türklərinin ənənəvi toy libasları, bəy və gəlin libaslarının mühüm atributları, bəy papaqları, bəy üçün xüsusi tikilən "40 yaxa köynəyi", "tülü", "sərəndaz", "dinqə" kimi qədim gəlin baş bəzəkləri, onların regional xüsusiyyətləri, həmçinin toylarda oynanan "Xan-xan" "Maral oyunu", "Kaftar-kosa", "Kosa-gəlin", "Südlü-sümük", "Toy mələk", "Kəklik-kəklik", "Zopu oyunu", "Quda-Quda", "Qız qaçırtma", "Cuhut-cuhut", "Usta qalayçı" "Şah oyunu" kimi oyunlar da təhlil edilmiş, "Davan altı", "Daşbulağı-qozalağı", "Dırnaqüstü" kimi mürəkkəb rəqslərlə bərabər məzəli rəqs olan "Üsdən aşırma", "Turullay" kimi oyunların özünəməxsus icra tərzlərinə də yer verilmişdir. Həmçinin "Şah Səlim", "Qaragöz", "Keçəl pəhlivan", "Şələ oyunu", "Hacı gəldi" kimi oyunların, "Surpapax", "Baharbənd", "Sürək", "Papaq oyunu", "Piyalə-ox", "Yaylıq oyunu" kimi idman oyunlarının da toy mərasimlərimizin vazkeçilməz tədbirlərindən olduğu izah edilmişdir. Gəldiyimiz qənaətə görə, mərasimlərin icra tərzi və adlarında müəyyən lokal xüsusiyyətlər müşahidə olunsa da, Azərbaycan toy

mərasimlərinin mahiyyəti eyni idi. Toy adətlərinin regional xüsusiyyətlərinin təhlili isə bütövlükdə Azərbaycan mənəvi mədəniyyətinin arxaik elementlərini, qədim ənənələri, bu ənənələrin özünəməxsus təşəkkül proseslərinin üzə çıxarılmasına geniş imkanlar açmışdır.

II fəslin "**Azərbaycan türkləri ilə birgə yaşayan digər etnosların toy adətlərində spesifik cəhətlər"** adlı ikinci yarımbaşlıqda Azərbaycan türkləri ilə birgə yaşayan avarlar, saxurlar, rutullar, udilər, ingiloylar, tatlar, ləzgilər, Şahdağ qrupuna aid edilən etnoslar, dağ yəhudiləri, talışlar kimi etnosların toy mərasimləri ilə bağlı özünəməxsus adətləri təhlil edilmişdir. Avar, saxur, ingiloy gənclərinin "Ukur", "Rukivak", "Qorqod" kimi bahar mərasimlərində, udilərin daha çox spesifik "Vərtivər" bayramında qızbəyənəmə adətiləri təhlil edilmiş, bir çox türk xalqları ilə paralellər aparılmışdır. Maraqlıdır ki, "Vərtivər" mərasimi hazırda Türkiyənin Rizə, Trabzon bölgələrində yaz-yay aylarında eyni ad altında keçirilir, bu mərasimə udulərdə olduğu kimi, daha çox gənc qız-oğlanlar qatılır, rəqs edib əylənirlər. Xarəzm özbəklərinə məxsus Qızılgül bayramında da udilərin "Vərtivər" bayramında olduğu kimi, həm qızlar, həm də oğlanlar bir araya gələrdi. Gənclər bəyəndikləri qızlara və ya nişanlılarına sevgi və xöşbəxtlik simvolu olan qızılgül, alma atırdılar.[1]

Bu bölümdə avarların "elçi daşı", "elçi dəsmalı" kimi spesifik elçilik simvollarından bəhs edilmiş, bu qədim adətlərin Azərbaycan şifahi xalq ədəbiyyatındakı motivləri araşdırılmış, Azərbaycanda "şanta taxılması", gəlin paltarına üzərlik, sədəf tikilməsi (Şəki-Zaqatala), "küp yellənməsi". "qızgüddü", "hırdaboy" (Lənkəran-Astara), gəlinin balla qarşılanması (Şəki-Zaqatala, Lənkəran-Astara) kimi bir çox spesifik adətlər də izlənmişdir. Azərbaycan etnosları arasında icra olunan bu ümumazərbaycan adətlərinin bir çox türk xalqlarında da rast gəlinən nümunələrinə yer verilmişdir. Azərbaycanlıların toy mərasimlərində hər zaman şirin həyat, bolluq simvolu olan bal tədqiqata cəlb etdiyimiz bölgələrin toy mərasimlərində özünəməxsus yer tutmuşdur. Xalq arasında yayılmış "Gəldi ballı gün, yamacda var toy-düyün" deyimi də bunu təsdiq edir. Hələ qədim zamanlardan bal təzə ailə üçün xeyir-bərəkət, şirin ömür, mehribançılıq rəmzi hesab edilmişdir. Xınalıqlarda elçilik, nişan mərasimlərində bal yeyilməsi, ingiloylarda, həmçinin talışlarda gəlinin bir kasa balla

[1]Сухарева О.А. Празднества цветов у равнинных таджиков (конец ХЫХ—нач ХХ в. / Древние обряды, верования и культы народов Средней Азии. Историко-этнографические очерки. Москва, Наука, 1986, с.35.

qarşılanması adəti bütövlükdə ümumazərbaycan ənənəsi idi. Toy mərasimlərində baldan istifadə edilməsi ənənəsi bir çox türk xalqlarında mövcuddur. Məsələn, Ahıska türklərində də gəlin evin eşiyindən içəri addımını atmadan eşiyin üst qisminə bal sürtərlər. Türkiyədə xalq arasında yayqın olan "Bazarda bal var, gəlinim" deyə söylənən bir türküdə də gəlinin getdiyi evə bal kimi şirinlik gətirməsi arzusu ifadə olunur.

Bu bölümdə bütövlükdə Azərbaycan üçün xarakterik olan şaxbəzəmə adətinin müxtəlif formalarına yer verilmişdir. Azərbaycanda şax üçün əsaəsn qayın, armud, iydə, palıd və b. ağac budaqlarından istifadə olunsa da udilərdə nil ağacından şax bəzədilərdi. Adətən şax bəzəmək üçün kəsilmiş budağın yaşıl yarpaqları qoparılmırdı. Qış aylarında isə şaxı qırqovul lələklərilə bəzəyirdilər. Şəki-Zaqatala bölgəsində yaşayan avarlar, saxurlar arasında, həmçinin Quba-Xaçmaz bölgəsində xınalıqlar, qrızlar, buduqların adətinə görə şaxın orta dik budağına qızardılmış xoruz bərkidilir.

Avar toylarında gəlin gətirərkən yanar məşəllərin bəy evində ocağa atılıması, ingiloyların gəlin gətirərkən oçağa dəmir atmaqla od falına baxılması, talışlarda və udilərdə gəlinin ocağın başına dolandırılması, oçaq yerini öpməsi, ata oçağından kül verilməsi kimi od-ocaqla bağlı bir çox ayinlərin qədim türklərin odla bağlı bir sıra ayinləri, həmçinin qədim türk əfsanəsi Ergenekonun Dəmir dağı odla əridərək yeni həyata başlaması ideyası ilə paralellər aparılmışdır. Həmçinin avar və saxurlarda gəlin yola salınarkən "xeyirlik" adlanan çörək verilməsi, saxurlarda gəlin güzgüsünün sədəflə bəzədilməsi kimi adətlərin mahiyyəti bir çox türk xalqlarında rast gəlinən elementləri ilə qarşılaşdırılmışdır. Eyni zamanda udilərdə elçiliyə bir qırmızı alma ilə gedilməsi, "Vərtivər", "Tərəmə" kimi udi bayramlarında nişanlı qıza aparılan hədiyyələr, bir çox türk xalqları, o cümlədən kərkük türkmənləri üçün də xarakterik olan "yol pulu" adəti, Azərbaycanın bəzi bölgələrində "ağsaqqal aşı", "salahaşı" kimi tanınan "məşvərət" toyu, "malkəsdi", "ağamətlik" adlanan "əttuq" adəti, rutul və saxurlar üçün xaraktrik olan "istək gecəsi" , "səhər mərasimi" adəti, saxurlarda yayğın olan "dayılıq", "analıq" adətləri, gəlin gətirərkən icra olunan "baxrı" "tərkintək", xınalıqların qarşılıqlı yardım ənənələrdən biri olan "xunça" adəti, tatlarda gəlinin dan yeri görünəndən sonra bəy evinə aparılması ənənəsi, "yengə süfrəsi "üzük-şal" "tabaq qırağı", "gəlin şərbəti" kimi bir çox qədim və spesifik adətlər də təhlil edilmişdir.

Udilərin, ləzgilərin, saxurların, "Şahdağ xalqları"nın toy adətlərində dayının mühüm rol oynaması adətinin kökləri araşdırılmış, dayıya münasibətdə qədim nəsli-qəbilə quruluşuna aid olan qayda-qanunların izləri təhlil edilmişdir. Əslində bu adətlərin Azərbaycanın qədim ənənəsinin bu

və ya digər şəkildə eynisini təşkil etməsi, nümunə üçün sonuncunun-dayının qızın evlənməsində xüsusi rolunun olduğunu Azərbaycanda xalq arasında yayılmış "Qız qarıyanda ağırlıq dayısının üzərinə düşər" deyimi də təsdiq edir.

Dissertasiyanın bu bölümündə toy mərasimləri zamanı icra olunan hər bölgəyə xas qədim oyun və rəqslərin mahiyyətinə də yer verilmişdir. Xüsusilə Şəki-Zaqatala bölgəsində geniş yayılmış və türk xalqlarının qədim musiqi alətlərindən olan tənbur və bölgədə "surnay" kimi tələfüz edilən zurnanın avar, saxur və ingiloyların toy mərasimlərindəki yeri qeyd edilmişdir. Hələ XIII əsrə aid Azərbaycan dilində yazılmış "Dastani Əhməd Harami" əsərində də toylarda çalınan "saznay" , "tənbur" alətlərinin adı çəkilməsi bu musiqi alətinnin Azərbaycan üçün ənənəvi olduğunu göstərir. Qeyd etmək lazımdır ki, Türkiyədə, Cənubi Azərbaycanda yaşayan Qaraqoyunlu tayfalarında da bu musiqi aləti toylarda çalınır.

Bölümdə XIX-XX əsrin əvvəllərində Azərbaycanda yaşayan digər ernosların toy libasları, bəy və gəlin libaslarının mühüm atributları təhlil olunmuş, avar və saxur toy libasının ən səciyyəvi atributlarından " kəkin" adlanan qabağından gümüş pullar asılan konus formasında, qızıl suyuna çəkilmiş ay-ulduzlu gümüş taç -gəlin başlığı nişan mərasimində gəlinə gümüş saplardan toxunmuş "dunça" adlanan yaylıq gətirilməsi, saxur gəlinlərinin "qülbəndi", "irat" bağlaması, udi gəlinlərinin toy libası üçün xarakterik olan araxçın tipli "qatar" və ya "daqqa" adlanan baş geyimi, İngiloyların toy libaslarının ənənəvi və zəruri geyim elementi "meyzər" ənənəvi toy libasının bir sıra spesifik elelmentlərinə yer verilmiş, belə ənənəvi gəlin geyimlərinin Orta Asiya türkləri, Ahıska türkləri kimi bir sıra türk xalqlarının geyimləri ilə oxşar cəhətləri araşdırılmışdır.

XIX-XX əsrlərdə Azərbaycanda daha çox avar və saxur, rutul toyları üçün xarakterilk olan "Daş atma", "Gərdən vurma" "Tataldüyün", "Turai", "Turna-turna", "Gərdək qaçırma", "Ləzgimalı" kimi əyləncə xarakterli oyun və yarışlar, "Avarı", "Sarıbaş", "Gendədur", "Arxuş" kimi rəqslər, həmçinin açıq havada, dağların təbii dekorasiya rolunu oynadığı özünəməxsus bir "teatr səhnəsində" oynanılan "Ovçu oyunu" kimi spesifik tamaşalardan da bəhs edilmişdir. Həmçinin etnosların toy libaslarının da spesifik cəhətlərinə yer verilərək, bu xalq ənənlərində ümümazərbaycan elementləri müəyyənləşdirilmişdir. Eyni zamanda bu libasların elementləri bir çox türk xalqlarının libasları ilə də müqayisə edilmişdir.

XIX-XX əsrin əvvəllərində Azərbaycan toy mərasimlərində hər bir etnosun özünəməxsus adətlərinin müqayisəli təhlili və bu mərasimlərin bir çox türk xalqlarıının adət-ənənələri ilə paralel araşdırılması göstərir ki,

XIX-XX əsrin əvvəllərində polietnik bölgələrdə hər etnosun müəyyən özünəməxsus lokal ənənələri mövcud olsa da, hər bir etnosa xüsusi spesifiklik qazandıran bu adətlər bütövlükdə Azərbaycan mənəvi dünyasının bir parçası idi. Bu fəsildə toy mərasimlərinin müqayisəli təhlili bütövlükdə ümumazərbaycan mədəniyyətinin yeni qatlarının üzə çıxarılmasına, mənəvi mədəniyyətimizin etnik spesifikliyini, rəngarəngliyini göstərməyə, bütövlükdə Azərbaycan mənəvi mədəniyyətinin spesifikasını ifadə etməyə imkan verdi.

**II fəslin "Azərbaycan türkləri və Azərbaycanda yaşayan digər etnosların toy adətlərində ortaq ənənələr"** adlanan üçüncü yarımbaşlığı XIX-XX əsrin əvvəllərində Azərbaycan türkləri ilə avar, saxur, udi, ingiloy, tat, talış, ləzgi, yəhudi və Şahdağ qrupuna aid edilən etnosların toy mərasimlərinin ortaq ənənələrinə həsr olunmuşdur. XIX-XX əsrin əvvəllərində Azərbaycan etnoslarının toy mərasim ənənələrində bir sıra spesifik xüsusiyyətlər olsa da, bu mərasimlərdə bütövlükdə Azərbaycan üçün səciyyəvi olan ümumi cəhətlər daha çox idi. Azərbaycan toy mərasimlərində qismət, övlad, artım, əbədiyyət simvolu olan alma və ya şirinlik, paklık ifadə edən balla bağlı adətləri hər bir etnos özünəməxsus şəkildə icra etsə də, bu ayinlər eyni mahiyyət daşıyırıdı. Azərbaycanın bütün bölgələrində xeyir-bərəkət rəmzi kimi çörək və undan istifadə edilsə də, hər bölgədə, hətta hər kənddə bu fərqli formada icra edilirdi. Şəki-Zaqatala və Quba-Xaçmaz bölgələrində avar, saxur, xınalıq kimi etnosların elçilik mərasimində azərbaycanlıların bu günədək qorunub saxlanmış ən qədim, ən müqəddəs adətlərindən olan "çörəkkəsdi" icra edilir. Tatlar arasında da "nunburi" adlanan çörəkkəsmə ayini eyni məqsədi daşıyır. Göründüyü kimi, Azərbaycan türkləri ilə birgə yaşaış tərzi Azərbaycan etnoslarında ortaq adət-ənənələrin də formalaşmasına öz bəhrəsini vermişdir. Dəmirin gücünə inam, od-oçaqla bağlı adətlər də tədqiqata cəlb etdiyimiz bölgələrdə rast gəlinən ortaq ənənələrdəndir. Sadəcə bu adətlərin icrası fərqli şəkildə olur. Çüzi fərqlərlə icra edilən bu mərasimlərin hər biri ailədə yeni həyatın başlanğıcı, bərəkət, övlad, qismət, şirinlik arzusunu ifadə edir. Toy mərasimlərində şaxbəzəmə, dayının xüsusi rolu ilə bağlı adətlərdə də eynilik müşahidə olunur. Xüsusilə də udi, saxur, ingiloy toy mərasimlərində icra olunan toy şaxının xoruzla bəzədilməsi, toy mərasimlərində dayının xüsusi rol oynaması, elçilik mərasimində bərabər çörək kəsilməsi kimi bir çox adətlər Şahdağ etnoslarında eynilə təkrar olunur. Tarixi və etnoqrafik materialların paralel təhlili xınalıq, buduq, qrız və haputların Azərbaycanın şimal qərb bölgəsi ilə tarixi və etnoqenetik əlaqələrinin də mövcud olduğunu söyləməyə əsas vermişdir. Udilərin və

ingiloyların bir çox adətləri, məsələn, nişanlı qıza qırmızı şal hədiyyə edilməsi, xristian olmasına baxmayaraq ziyarətgahlarda qoyun kəsilməsi, hətta udilərin Pasxa bayramında nişanlı qız üçün “Kala Qerqets”də qoyun qurban kəsmək ənənəsi, “bağbaşı” adəti, şax bəzədilməsi kimi bir çox adətlər Azərbaycan türklərinin qədim adət-ənənələri ilə üst-üstə düşür, eyni adla bilinir. Bu adətlərin etnik, eyni zamanda qədim ümumazərbaycan mənşəyindən xəbər verir. Udilərdə də Azərbaycan türklərində olduğu kimi kiçik nişan qədim türk sözü “bəlləmək”, “bəlirləmək” sözündən olan “bəlgə” adlanırdı. Qeyd etmək lazımdır ki, tədqiq etdiyimiz etnosların toy adətlərinin adları bəzən hətta müasir Azərbaycan dilində az rast gəlinən türk kəlmələri ilə qorunub saxlanmışdır. Disertasiyada bununla bağlı bir çox nümunələr, məsələn, udilərin bir çox türk xalqları kimi şirniyyatı “bişi”, xonçanı “tapak” (tabaq), gəlinə aparılan şalı “çıraqçün yaylıq”(çıraq üçün yaylıq), toyqabağı icra etdikləri heyvan kəsilməsi mərasimini “ əttuq” (ətlik), ingiloyların xonçanı yazılı ədəbiyyatımızda ana dilimizdə bizə gəlib çatan ilk nümunələrindən biri olan “Dastani-Əhməd Harami”də olduğu kimi “xon” adlandırması və s. verilmişdir. Qeyd etmək lazımdır ki, “çilov”, “xəşil”, “şiləplov”, “yəxni”, xüsusilə də “hərisə” kimi bir sıra qədim türk, o cümlədən Azərbaycan mərasim yeməkləri ənənəvi udi mətbəxində qorunub saxlanmışdır. Hələ XIII əsrə aid “Dastani-Əhməd Harami”də “hərisə” yeməyinin Azərbaycan toy süfrəsinin vazkeçilməzi olduğunu görürük. Hazırda “hərisə" Kıbrız türklərinin də qədim mərasim yeməklərindən biri olaraq qalmaqdadır.

Bu bölümdə Azərbaycan etnoslarının toy adətləri bir çox türk xalqları ilə də qarşılaşdırılaraq təhlil edilmişdir. Avarların, ingiloyların balla bağlı mərasimləri, “yol pulu” ənənəsi, oçağa dəmir atılması adəti, udilərin, talışların, xınalıqların adətinə görə gəlinin ata evindən çıxanda oçaq yerini öpməsi, ata oçağından xeyirlik kimi kül verilməsi adəti bir çox türk xalqlarında da, o cümlədən kərküklərdə, Makedoniya türklərində, qaşqaylarda da mövcuddur. Azərbaycan mənəvi mədəniyyətinin qədim ənənələrindən olan od falı, qismət simvolu alma, elçi daşı, gəlinə bal vermə kimi adətlərin Azərbaycan folklor nümunələri, həmçinin türk xalqlarının mərasim ənənələri əsasında araşdırılması bu mərasimlərin həm də ümumtürk ənənələri olduğunu ortaya qoymuşdur. Toy adətlərinin regional spesifikasının, etnik ənənələrinin üzə çıxarılması qədim Azərbaycan toylarının zəngin və rəngarəng çalarlarını, Azərbaycan türkləri və polietnik bölgələrdə yaşayan müxtəlif etnoslar arasında qədim etnogenetik əlaqələri də müəyyənləşdirməyə imkan vermişdir.

Gəldiyimiz qənaətə görə, bölgələrin toy adət-ənənələrində bir sıra

özünəməxsus regional xüsusiyyətlər olsa da, yanaşı yaşama və bir-birinin mənəvi mədəniyyətlərindən təsirlənmələr həm Azərbaycan türklərinin, həm də bu bölgələrdə məskun olan digər etnosların adət-ənənələrində, o cümlədən toy mərasimlərində ortaq ənənələrin formalaşmasına səbəb olmuşdur. Azərbaycan türkləri ilə birgə yaşayış Azərbaycan etnoslarının məişətində, xüsusilə də toy mərasimlərində umumi və ya oxşar çəhətlərin, qədim və vahid kökə bağlı ümumazərbaycan, ümumtürk ənənələrinin formalaşmasına şərait yaratmışdır. Azərbaycanda yaşayn etnoslar müəyyən spesifikliyi qoruyub saxlasalar da, onların mərasim ənənələrinin bütövlükdə ümumi cəhətlərə malik olduğu müşahidə edilmiş və Azərbaycan toy mərasimləri Azərbaycan türkləri ilə uzun müddət bir arada yaşayan avar, ingiloy, udi, talış, tat, ləzgi, xınalıq kimi etnosların eyni düşüncələrini ifadə edən vahid mənəvi dünyasının bir parçası kimi ortaya çıxmışdır. Nəticə olaraq Azərbaycan türklərinin toy adətləri ilə Azərbaycanda yaşayan digər etnosların toy adətlərinin çox hallarda üst-üstə düşdüyünü və bunun Azərbaycan etnoslarının uzun müddət davam etmiş qarşılıqlı mədəni təsirin nəticəsi olduğunu söyləmək olar.

Bu fəsildə XIX-XX əsrin əvvəllərində Azəbaycanın tarixi-etnoqrafik bölgələrinin regional xüsusiyyətlərini özündə əks etdirən toy mərasimlərinin qarşılıqlı-müqayisəli təhlili gösrərdi ki, mənəvi mədəniyyətimizin etnik spesifikliyi, rəngarəngliyi hər bölgənin özünəməxsus xüsusiyyətlərini ifadə etməklə bütövlükdə Azərbaycan mənəvi mədəniyyətinin spesifikasını daha zənginləşdirmişdir. Hazırda da Azərbaycan türklərinin və digər Azərbaycan etnoslarının toy adətləri çox hallarda adət-ənənə baxımından üst-üstə düşür ki, bu da davam etməkdə olan qarşılıqlı mədəni təsirin nəticəsidir. Azərbaycan etnoslarına xüsusi spesifiklik qazandıran adətlərin bir çoxu Azərbaycan folklor nümunələrində, həmçinin türk xalqlarının mərasim ənənələrində də izlərini sürdürməkdədir.

Dissertasiyanın **"Doğum adətlərinin dini-magik strukturu"** adlanan III fəsli adət və inancların ən arxaik formasını qoruyub saxlaya bilən doğum mərasimləri ilə bağlı adətlərə həsr olunmuşdur. Evliliyin bünövrəsi qoyulan andan insanlar dünyaya övlad gətirmək, nəsil artırmaq arzusunu ifadə edən bir sıra ayin və adətlər icra etməyə başlayırlar. Gəlin köçərkən ona "oğullu-qızlı olsun" deyə xeyir-dua verilməsi, qucağına oğlan uşağının verilməsi, ər evində duvağının barlı budağa, xüsusilə də alma ağacının budağına atılması, nişanlıların alma ağacı əkmək ənənəsi kimi adətlər yeni ailəyə övlad arzusunu ifadə edirdı. Azərbaycan ənənəsinə görə övladı olmayan ailə el tərəfindən də yaxşı qarşılanmırdı, "sonsuz" adlandırılırdı.

Dədə Qorqud dastanında da “oğlu-qızı olmayanı Allah-taala qarğayıbdır, biz dəxi qarğarız” deyə söylənməsi, övladı olmayan üçün qara otaq ayrılması övladsız ailəyə mənfi münasibəti əks etdirir. Bu baxımdan fəslin I yarımbaşlığı Azərbaycanda sonsuzluğa qarşı icra olunan adətlərə həsr olunaraq “**Sonsuzluğa qarşı icra olunan ayinlərin regional xüsusiyyətləri”** adlanır. Yarımbaşlıqda sonsuzluqla bağlı ayinlərin bölgələr üzrə spesifik cəhətlərinə yer verilmiş, dağ-daş, od, ağac, su, heyvan kultu ilə bağlı doğum pirləri təhlil edilmişdir. “Gömrad” (Qəbələ), “Pəriqala” (Zaqatala), “Kürmük”(Qax), “Çülə xana baba piri” (Quba), “Beşbarmaq”, “Baba dağı” tədqiq etdiyimiz bölgələrdə sonsuzluğa qarşı ən çox ziyarət olunan dağlardır. Bu ziyarətgahların hər birində isə özünəməxsus ayinlər icra edilir. Gömrad dağına yeni doğulacaq uşağın saçı nəzir edilir. Bu məbəd həm Şəki-Zaqatala, həm də Quba-Xaçmaz bölgəsinin, xüsusilə Xınalıq əhalisinin ən çox getdiyi ziyarətgahlardandır. Əhali bu dağa övlad üçün nəzir deyib qurban kəsir, beşik qoyur, pirdəki “Göbək daşı”na sonsuzluqdan qurtuluş kimi baxırdılar. Doğulacaq körpənin saçını Gömrad dağına nəzir deyilir və ya doğulan oğlan uşağının saçı niyyət edilərək arxa hissədən hörük şəklində uzadaraq 7 ildən sonra Gömrad ziyarətgahında kədirilir. Bu adət xınalıqlar arasında çox yayğındır. Yarımbaşlıqda Orta Asiya türkləri, kumıklar, İraq türkmənləri kimi bir çox türk xalqlarında rast gəlinən bu adətin qədim kökləri təhlil edilmişdir. Qədim türk inancına görə uzadılan kəkil Tanrının göydən onu görə bilməsinə və qorumasına yardım edir. Kürmüx məbədi hər il may ayında yerli əhalinin ən böyük ziyarətgahına çevrilir. övlad diləyənlər dağın başında yerləşən ziyarətgaha mütləq ayaqyalın çıxır və niyyəti hasil olanlar burada qurban kəsirlər. Bu ziyarətgahı müsəlmanlarla bərabər xristianlar da eyni gündə ziyarət edirlər. Bu, ziyarətgahın çox qədim dövrə aid olduğunu göstərir. “Çülə xana baba” pirindəki təbii qaya dəliyindən keçən qadınlar pirin yaxınlığındakı kolluqlara kiçik beşiklər asırdılar, inama görə beşiyin yırğalanması qadınların niyyətlərinin hasil olacağana işarə idi. Katex (Balakən), Toyuqqıran (Qəbələ Nic k.) piri, Mıxqovaq (Qəbələ) kimi ağac-doğum pirlərində də spesifik ayinlər icra edilir. Katexdəki dağdağan ağacının oyuğundan keçirlər, Mıxqovaq pirində diləyini deyib ağaca mıx çalardılar, Toyuqqıran pirinə isə diri toyuq gətirib kəsər, ayaq və başını ağacdan asardılar. “Maral yalayan baba”(Qəbələ r. Vəndam k.), xalq arasında “İlan oçağı” da deyilən “Maşxan türbəsi” (Lənkəran-Astara), “Qırx Abdal piri”(Xınalıq), “Mon Dige”, “Şahsəvi” ocaqları kimi heyvan, su, od, daş kultu ilə bağlı ziyarətgahlarda sonsuzluğa qarşı icra olunan ayinlərin reqional xüsusiyyətləri araşdırılmışdır. Ayinlərin mahiyyəti eyni olsa da,

hər bölgənin öz ziyarətgahı, bəzən hər kəndin, hətta hər ailənin öz inam yeri mövcud idi. Şəki-Zaqatala bölgəsində Kərimli, Quba-Xaçmaz bölgəsində Xınalıq kimi kəndlərdə çoxlu sayda ziyarətgahın olması da bununla izah edilir.

Bu yarımbaşlıqda sonsuzluğa qarşı bölgərdə icra olunan canavarın üstündən sonsuz qadınlarını adlaması, qurd ağzından keçirilməsi, uşaqların paltarına qurd dişi və qurd tükünün tikilməsi kimi bir çox ayinlər də təhlil edilmiş, bu adətlərdə qurdun arxaik strukturu, ritual-mifoloжi səciyyəsi, türk inanclarındakı bəd ruhları qovan, uşaqların hamisi kimi çıxış edən, xilaskar, başlanğıc, əcdad, yol göstərən kimi bir çox funksiyaları təhlil edilmişdir. Dissertasiyanın bu yarımbaşlığında tədqiqata cəlb olunan bölgələr üçün səciyyəvi olan, dağ-daş kultu, ağac kultu ilə bağlı sonsuzluğa qarşı ziyarətgahlar təhlil edilmiş, onların bu günədək qorunub qalmış elementləri, spesifik xüsusiyyətləri araşdırılmış, sonsuzluğa qarşı icra olunan qədim inanclarla bağlı ayinlərin mənşəyi açılmış, bir çox türk xalqlarının sonsuzluğa qarşı adətləri ilə qarşılaşdırmalar edilmişdir.

III fəslin II yarımbaşlığı **“Doğum öncəsi, doğum və doğumdan sonra icra olunan adətlər”** adlanır. Bu yarımbaşlıqda azərbaycanlıların dini-magik struktura malik doğum adətləri təhlil edilmiş, doğum adətlərində mühüm yer tutan “hal” ruhunun bölgələr üzrə xalqın mifik təsəvvürlərindəki müxtəlif spesifik formaları müəyyən edilmiş, XX əsrin əvvəllərində Azərbaycanın müxtəlif bölgələrində qadını “hal” adlı mifik bəd qüvvədən qorumaq üçün xalq arasında mövcud olan bir sıra ovsunlar və ayinlərə də yer verilmişdir. Həmçinin xalq inanclarında döl, mayalanma simvolu olan ay, bəd ruhları qovan, uşaqların hamisi kimi çıxış edən qurd, dünya ağaçına və onun rəmzi olan ağaclara, bitkilərə tapınma simvolu olan üzərlik, dağdağan, andız bitkiləri, doğum ayinlərində istifadə olunan “məryəm tükü”, xalq arasında “heydəri” adlanan kəkil saxlanması ilə bağlı bir çox spesifik ayinlərin mənşəyi araşdırılmış, bir çox türk xalqlarının doğum adətləri ilə paralellər də aparılmışdır.

Dissertasiyanın IV fəsli **“Dəfn-yas adətlərində arxaik ənənələr”** adlanır. Bu fəsildə ölümlə bağlı ən qədim etiqad və ideologiyaların qalıqları, XIX-XX əsrin əvvəllərində Azərbaycanda dəfn-yas adətlərində qorunub qalmış arxaik adətlər araşdırılmışdır. Bu fəslin “**Ölüm, axirət dünyası ilə bağlı inam və təsəvvürlər”** adlanan birinci yarımbaşlığında xalq arasında mövcud olan ölüm, axirət dünyası, əbədi həyat haqqında qədim təsəvvürlər, dünyagörüşlər təhlil edilmiş, həyatın ən mühüm keçid nöqtəsi, yeni bir həyata başlanğıc kimi qəbul edilən ölümlə bağlı azərbaycanlılar arasında mövcud olan inam və təsəvvürlər, əbədiyyət, can

və ruhla bağlı ayinlərlərdən bəhs edilmişdir. Dördüncü fəslin birinci yarımbaşlığının **"Ölümə işarət edən əlamətlər"** adlanan birinci bəndində, Azərbaycanın müxtəlif bölgələrində ölümə işarət edən əlamətlər təhlil edilmişdir. Bölgələrdə ölüm işarəti kimi qəbul edilən heyvanların bəzi hərəkətləri, məsələn, itin, bayquşun ulaması, qarğanın qarıldaması, xoruzun vaxtsız banlaması, toyuğun xoruz səsi çıxarması və ya ayaqqabı, çorab kimi əşyaların, dişlərin və ya saçın tökülməsinin yuxuda görülməsi, ölü suyunun başqasının üzərinə sıçraması, göydə ulduz axması, qəfil şam sönməsi, qulaq çingildəməsi, təsadüfən qəfildən çırağın sönməsi kimi əlamətlər təhlil edilmiş, onların mahiyyətindən bəhs edilmişdir. **"Ölümün qarşısını almaq üçün ovsunlar"** adlanan ikinci bənddə xalqın ölüm haqqındakı təsəvvürlərində mühüm yer tutan ölümün qarşısını almaq üçün icra edilən ölüm ayağında olanın adının dəyişdirilməsi, yeni toxunan xalçaya düymə tikilməsi, xəstə doğulan uşağın sağ qalması üçün onun sağlam uşaqla beşikkərtmə edilməsi adəti kimi bir sıra ovsunlardan bəhs edilmişdir. **"Ruh haqqında təsəvvürlər"** adlanan üçüncü bənddə isə dəfn və yas mərasimlərində xüsusi yer tutan ruh haqqında təsəvvürlərə, ruh, onun yenidən canlanması qorxusu ilə, ruhun razı salınması istəyi ilə icra edilən ayinlərə yer verilmişdir. Ruh xalqın təsəvvürlərinə görə gözlə görünməzdir və əsasən müxtəlif zoomorf obrazlarda ilan, quş, pişik,keçi, camış, bülbül, sərçə, ağ toyuq və b.cildlərdə gözə görünə bilərdi. Bu bənddə "ruh tutmasına"qarşı icra edilən ayinlər araşdırılmışdır. Bu təsəvvürlərdə islam və islamaqədərki inanclar özünəməxsus şəkildə bir-birinə qaynayıb-qarışması göstərilmişdir.

IV fəslin **" XIX-XX əsrin əvvllərində Azərbaycanda dəfnə qədər, dəfn zamanı və dəfndən sonra icra olunan ayinlər"** adlanan II yarımbaşlığında tədqiqata cəlb edilən bölgələrin dəfn adətlərindəki müxtəliflik izlənilmişdir. Burada Azərbaycan türkləri və onlarla bərabər polietnik bölgələrdə yaşayan avar, rutul, ləzgi, ingiloy, udu, tat, talış kimi etnosların yas mərasimlərindəki adət və ənənələri, bu mərasimlərdə qorunub saxlanmış arxaik elementlər, axirət dünyası, ruh barədə qədim dünyagörüşləri, inancları, mifik təsəvvürləri, hər bir bölgədəki dəfn və yas mərasimlərinin lokal xüsusiyyətləri qarşılıqlı araşdırılmış və müqayisəli şəkildə izah edilmişdir. Yarımbaşlığın **"Ölüm anında və ölümdən sonra icra ediən ayinlər"** adlanan birinci bəndində qədim dəfn və yas mərasimlərimizin təsviri, "yuğ"- yas mərasimi, kütləvi ağlama mərasimi olan "yuğlaş", ölən günü toplanan camaata ehsan verilməsi, qəmli havalar çalıb ağı deyilməsi "Avesta", "Orxon Yenisey", "Kitabi-Dədə Qorqud" kimi tarixi abidələrimizdə, saysız-hesabsız türk-oğuz əfsanə və xalq

deyimlərində öz əksini tapan qədim türk qəbilələrinin yas mərasimlərinin ətraflı təsvirləri verilmişdir. Məlumdur ki, orxonlular, oğuzlar da kütləvi "ağlama" (yuğlaş) keçirirdilər. Bu qədim türk ənənələrinin XIX-XX əsrin əvvəllərində Azərbaycan yas mərasimlərindəki izləri araşdırılmışdır. Belə bir nəticəyə gəlinmişdir ki, bu qədim yas adətlərinin bir çox elementləri demək olar ki, heç bir dəyişiklik olmadan qalmaqda idi. Mərasim ayinlərinin qorunub saxlanması baxımından yas mərasimləri daha konservativ olduğu üçün ağlaşma qurulması, ağıçı qadınların ağı söyləməsi və məclisdəkilərin də ağıçının səsinə səs verməsi ənənəsi bu günədək qorunub saxlanmaqdadır. El arasında ağı demək "ölünün yaraşığıdır" deyərlər. Ağı demək Azərbaycan türkləri arasında çox zaman "dil demək" kimi də ifadə olunur. Söz, musiqi, pantomim sənətinin qaynayıb qarışdlğı ağı ayininin icrası üçün yasa xüsusi ağıçılar dəvət olunardı ki, Şəki-Zaqatala bölgəsində bəzən onlara "sazanda" da deyirdilər. Kərkük yas məclislərində də xüsusi dəvət olunmuş ağıçılar "sazlayan" adlanır. "Ölü sazı çalma" adəti hazırda Türkiyənin də bəzi bölgələrində xüsusilə, Ege və Antalya bölgəsində yayqındır. Türk xalqları üçün xarakterik olan qədim yuğ mərasiminin izləri, yas mərasimlərində ağı söyləmək ənənəsi udilər və ingiloylar arasında da geniş yayılmışdı. Bəşər tarixinin ən qədim dövrlərindən davam edib gələn bu qədim adət dinindən asılı olmayaraq həm müsəlman, həm də xristian əhalisinin yas mərasimlərində qorunub saxlanmışdır. Ağlaşma-yuğ mərasimi Qafqaz Albaniyasında yayğın qədim adətlərdən idi. Udilərdə daha bir qədim ənənəyə görə ağlaşmaya yığışan qadınlardan biri ölünün ağzını mumlayırdı. Bu ayinin izləri azərbaycanlılar arasında çox yayılmış "ağzını mumla" ifadəsində qalmaqdadır. Udilər ölünü türk qam-şaman ayinlərinə məxsus ənənlərlə- musiqi ilə, zurna sədaları altında dəfn edirlər. Məlumdur ki, türk xalqlarının şaman-qam ayinləri də musiqinin (ney, qaval, dəf) müşayəti ilə icra edilərdi. [1] Hazırda Türkiyənin Anadolu bölgəsində də, xüsusilə, Midyat, Savur tərəflərin dəfn mərasimlərində də bu ənənə qalmaqdadır. Udilərin bəzi yas adətində də qədim türk ənənlərinin izləri özünü büruzə verir. Bu adətlərin qorunub saxlanması göstərir ki, azərbaycanlıların yas mərasimləri zamanı icra olunan ayinlərdə qədim inanclar sistemi ilə klassik dini ideologiyaların özünəməxsus sintezi özünü birüzə verir. Dissertasiyada xalqın qədim dünyagörüşlərinin izlərini əks etdirən dəfn mərasiminin günəş batmadan icra edilməsi, "Ölünün yerdə qalmaması" üçün cənazənin ən qısa müddətdə torpağa verilməsi kimi

---

[1] Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, Yazıçı, 1983. s.293.

qədim adətlərin mənşəyi və mahiyyəti arxeoloжi-etnoqrafik materiallar əsasında araşdırılmışdır. Həmçinin dəfn, dəfndən sonrakı müddətdə tədqiqata cəlb edilən bölgələrin özünəməxsus dəfn ayinləri - ölünün üzərinə bir parça çörək, alma, mixək qoyulması adətlərinin də mahiyyəti təhlil edilmişdir. Bu ayinləri həm mərhumun ruhunu razı salmaq, həm də ona evin bərəkətini özü ilə aparmağa mane olmaq, "o dünyasını vermək" üçün edirdilər. "Əbədi həyat", "dirilik ağacı" və ya "dirilik gülü" nün rəmzi kimi çıxış edən bitki kultu ilə bağlı belə ənənələrə Orta Asiya türklərinin də dəfn mərasimlərində rast gəlinir. Burada ölünün üzərinə reyhan otu və ya qızılgül qoyardılar.[1] Bu qədim adət Şumer əfsanəsi "Gilqamış"da insanı gəncləşdirən, əbədi həyat bəxş edən, "dənizin dibində bitən, qızılgültək tikanlı bir gənclik çiçəyi ideyası ilə eynilik təşkil edir.

Mərasim ayinlərində ölünün sinəsinə daş və güzgü, alma qoyulması və ya mixək səpilməsi, , mərhumun can verdiyi otaqda su qablarının boşaldılması, məzar daşına su tökmək, ölünün ağzına su və ya şərbət tökülməsi, qara şax bəzədilməsi kimi bir sıra spesifik elementlərə də rast gəlinir. Tədqiqata cəlb olunan bölgələrdə ölüm, axirət dünyası ilə bağlı inam və təsəvvürlər, 3, 7, 40, il mərasimləri, ehsan verilməsi kimi bir çox adətlərin Azərbaycan türkləri ilə eyniyyət təşkil etdiyini, bu etnosların uzun müddətdə Azərbaycan türkləri ilə iç-içə yaşaması nəticəsində Azərbaycanda yaşayan bu etnosların maddi-mənəvi mədəniyyətində fərqli cəhətlərdən daha çox oxşar cəhətlər formalaşdığını göstərdi. Dəfn və yas mərasimlərində icra olunan bu qədim adətlərdə ibtidaı inancların qalıqlarını özündə əks etdirən arxaik elementlər islam ənənəsi ilə qaynayıb qarışmışdır.

Türk coğrafiyası üzrə apardığımız paralellər Azərbaycanın tarixi-etnoqrafik bölgələrində təsbit etdiyimiz bir çox nümunələrin Orta Asiya, Anadolu, Altay, Balkan türklərinin mərasimlərində də də mövcud olduğunu göstərir. Məsələn, udilərdə ölü qoyulan xərək "salaca" adlandığı kimi, Türkiyənin bəzi bölgələrində də tabut "sal ağacı" adlanır. Ümumiyyətlə, udilərin dəfn mərasimlərində adı keçən salaca, xoçi, hayati kimi kəlmələr türk çoğrafiyasında da ölüm mənalı terminlərdir. Məsələn, Türkiyənin Anadolu bölgəsində tabut "sal ağacı" adlanır, ölünü baş tərəfində qoyulmuş

---

[1] Кармышева Б.Х. Архаическая символика в пагребально-поминальной обрядности узбеков Ферганы / Древние обряды, верования и культы народов Средней Азии: Историко-этнографические очерки. М, Наука, 1986. с.141.

taxtaya “haça daşı” deyirdilər.[1] Türkiyənin Elaziğ bölgəsində isə yas mərasimlərində verilən ehsana “həyat yeməyi” deyirlər. Həm udilərin, həm də türklərin qədim dəfn-yas ayinlərində adı keçən “salaca”- “sal ağacı”, ”xoçi-haça”- “haça daşı”, “hayati” kimi kəlmələr türk-udi mənəvi mədəniyyətinin etnoqenetik köklərindən xəbər verir. Azərbaycanın tədqiqata cəlb etdiyimiz bölgələrində XIX-XX əsrlərə aid mənbələr və etnoqrafik materiallar üzrə təsbit etdiyimiz qədim dəfn-yas ayinləri müqayisəli şəkildə araşdırıldıqca, hər bir etnosun qədim dünyagörüşlərinin ayrı-ayrı elementləri üzə çıxarıldıqca ilk baxışdan anlaşılmayan bir çox adətlərin mahiyyəti, kökləri çox dərinlərə gedən inancların izləri üzə çıxır.

Dördüncü fəslin ikinci yarımbaşlığının ikinci bəndi **“Yasdan çıxarma və miras qaydaları“** adlanır. Bənddə Azərbaycanın tədqiqata cəlb olunan bölgələrindəki miras qaydaları və yasdan çıxarma ənənələri barədə məlumat verilmiş, bir sıra türk xalqlarının yasdan çıxarma adətləri ilə qarşılaşdırmalar aparılmışdır.

Dissertasiyanın **V fəsli** “**Xalq inancları”** adlanır. Tarixin ən erkən mərhələlərində meydana gələn qədim dünyagörüşləri əsrlərin süzgəcindən keçərək xalqın məişət ənənələrində öz izlərini qoruya bilmiş xalq inancları etnosun kimliyinin təyin edici amilillərindən biri olub hər bir etnosa spesifiklik qazandırır. Minilliklər boyu xalqın ictimai-fəlsəfi təfəkkürünün, mənəvi dünyagörüşünün formalaşmasının ən erkən və ən zəngin mərhələsini təşkil edən qədim inanclar sistemi azərbaycanlıların yaddaşında həkk olunaraq onun mənəvi dünyasında o qədər güclü təməl atmışdır ki, bu gün belə islam ideologiyasının tərkibində öz varlıqlarını qoruyub saxlayaraq özünəməxsus sintezin ortaya çıxmasına səbəb olmuşdur. Bu baxımdan fəslin birinci bölməsi **“Qədim dini-mifik təsəvvürlərin və ibtidai inamların qalıqları”**nın araşdırılmasına həsr olunmuşdur. Bu bölmədə azərbaycanlıların qədim dini-mifoloжi dünyagörüşlərin izləri və kosmoqonik inamlar, əcdad kultu, heyvan kultu, ağac-bitki kultu, dağ kultu, su kultu, bədnəzər, ovsun ayinləri, hal anası, aləm ruhu ilə bağlı ibtidai inamların qalıqları tədqiqata cəlb etdiyimiz bölgələr üzrə araşdırılmışdır. Bu baxımdan azərbaycanlıların toy, doğum, ölüm mərasimləri ilə bağlı ayinlərində qədim mifoloжi dünyagörüşlərinin izləri araşdırılmış, kainat haqqında mifik təsəvvürlərində mühüm yer tutan Günəş, Ay kultu və digər səma cisimləri və onların simvolları ilə bağlı qədim inanclar sis-

[1] Harun Yıldız. Alevi Geleneyinde Ölüm ve Ölüm sonrası Tören ve Ritüeller // Türk kültürü və Hacı Bektaş Veli. Araşdırma dergisi. Ankara, 2007, sayı 42, s.100.

teminin xalqın məişət ənənələrində qorunub qalmış qalıqları üzə çıxarılmışdır. Bu bölümdə Azərbaycan xalq inanclarında mühüm yer tutan at, qurd (canavar), it və digər heyvanlarla dabağlı ayin və ovsunlar təhlil edilmiş, onların regional xüsusiyyətləri üzə çıxarılmışdır. Eyni zamanda XIX-XX əsrin əvvəllərində Azərbaycan Şəki-Zaqatala bölgəsində daha çox özünü büruzə verən qurbağa, tısbağa, göyərçin, maral, dəvə, Quba-Xaçmaz bölgəsində xoruz, ayı, kirpi, Astara-Lənkəran bölgəsində pişik, ilan və s. heyvanların qoruyucu, hami ruhuna inamın spesifik cəhətlərinə də yer verilmişdir. Azərbaycanlıların xalq inanclarında özünəməxsus yer tutan ovsun ayinləri, zərərverici, qoyuyucu, aldadıcı ovsunlar təhlil edilmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycan mərasim ayinlərində daha çox müalicəvi və qoruyucu ovsunlar icra edilsə də, zərərverici magiya ayinlərinin qalıqlarına da rast gəlinirdi. Tədqiqata cəlb etdiyimiz bölgələrdə qoruyucu ovsun kimi toyda kəsilən heyvanın qanından evlənəcək gənclərin paltarına çəkilərək gizlədilməsi (Şəki-Zaqatala), bəyin söyüd ağacına çıxarılması (Lənkəran-Astara), göz ağrısını sağaltmaq üçün Günəşə sitayişin təsirilə icra olunan ovsun (Şəki-Zaqatala) kimi bir çox qoruyucu və müalicəvi ayinlərlə yanaşı, qara toyuq qanı ilə dua yazdırmaq, dəmirə, qurğuşuna ovsun oxunması (Şəki-Zaqatala), xəncəri bir neçə dəfə qınına salıb çıxarmaq, dəsmal ucu düyünləmək, qıfıl bağlamaq(Quba-Xaçmaz), qurd yağı ilə bağlı bəd niyyətlə edilən ovsunlar da olmuşdur. Bu bölümdə belə zərərverici ovsunlara qarşı önləyici tədbir kimi səma cisimləri, ağac, bitki, od, bəzən də qanla bağlı ayinlərə də yer verilmişdir. Azərbaycan xalq inanclarında xüsusi yer tutan ağac-bitki kultunun toy, doğum, yas mərasimlərindəki yeri, şaxbəzəmə adətinin mahiyyəti, onun əbədi həyat, yeni həyat, bərəkət, məhsuldarlığı təmsil etməsi, bölgələrin mərasim ayinlərində mixək, alma ilə bağlı bitki kultunun izlərini daşıyan bir sıra inamların qalıqları da araşdırılmışdır. Azərbaycanda çinar, qovaq, palıd, qoz, alma, dağdağan, üzərlik kimi pir hesab edilən ağaclar yaşıllıq, məhsudarlıq simvolu olmaqla yanaşı bar vermə xüsusiyyətinə görə də xalq inanclarında mühüm yer tutmuşdur. Məsələn, Kəlbəcər bölgəsində təzə bar verən ağaca hamilə qadının nəzəri dəyəcəyinə inanırdılar. Burada hər ikisi bar verən hesab olunurdu. Bu, hamilələrin rastlaşanda bir-birinə zərər verə biləcəyi inamından qaynaqlanırdı. Mıxqovaq piri (Oğuz), Dağdağan ağacı piri (Balakən rayonu Katex kəndi), Toyuq piri (Qəbələ Nic), Zolazo (Astara), “Div damı” piri(Laçın), “Çinab” piri(Zəngilan) kimi bir çox ziyarətgahlarda qurban kəsib nəzir qoymaq, ağacın gövdəsinə mıx çalmaq, ağacın oyuğundan keçmək və ya əlini oyuğa

salmaq, ağacın budaqlarından müxtəlif parçalar, bəzən də kəsilən qurbanın baş və ayaqlarının asılması kimi qədim ağac ayinləri icra olunurdu. XIX əsrdə Oğuz rayonunda müqəddəs sayılan qədim çinarın altında yerli əhali şam yandırar, qurban kəsərdi. Heç kəs ağacın nəinki yaşıl, hətta qurumuş budaqlarını belə qırmağa cəsarət etməzdi. Qurumuş budaqlar ağacın dibinə yığılardı və ancaq qurbankəsmə mərasimlərində yandırılardı.[1] Bu bölümdə bölgələrdəki ağac pirləri, bu pirlərdə icra olunan ayinlərin spesifik cəhətləri təhlil edilmişdir.

Qədim inanclar sistemində müqəddəs sayılan təbiət ünsürlərindən biri olan dağ-daş xalq inanclarına görə canlı bir varlıq, müqəddəs başlanğıc, qoruyucu kimi qəbul edilmişdir. Azərbaycanda bir çox dağların belə özəllikləri olduğuna inanılır. Bu bölümdə tədqiqata cəlb etdiyimiz bölgələrdəki Gömrad (Qəbələ rayonu), Armatay (Zaqatala rayonu), Baba dağı (Quba rayonu), Qiblə dağı (Quba rayonu), Həzrət baba dağı (Quba rayonu), Tufan dağı (Quba rayonu, Xınalıq kəndi) kimi bir çox dağların mifik səciyyəsi araşdırılmış, onlarla bağlı xalq arasında mövcud olan əfsanə və rəvayətlərə də yer verilmişdir. Azərbaycanın demək olar ki, bütün bölgələrində təbii şəkildə parçalanmış qayalar və ya müxtəlif izlər olan dağlar, daşlar xalq arasında müqəddəsləşdirilir və bununla bağlı müxtəlif əfsanələr yaradılır. Bunlarda ən yayğın olanı Həzrət Əlinin atının ayağının izi və ya qılıncinını parçaladığı qayalar olması ilə bağlı rəvayətlərdir. Belə ziyarətgalardan olan "Babarutən" pirinin adı və əfsanəsi haqda XIX əsr mənbələrində də məlumatlar var.[2] Müasir dövrdə də Astara-Lənkəran bölgəsindəki "Əli izi", Gədəbəy bölgəsində "Haça qaya", "Pir" dağı ilə bağlı əfsanələr də bu qəbildəndir.

İbtidai insanın həyat tərzi ilə bağlı suyun insanlara can, ruh verməsi ilə bağlı mifoloжi təfəkkürün qalıqları Azərbaycanda "uğur suyu","axar su", "dirilik suyu" ilə bağlı xalq inaclarında qorunub saxlanmışdır. Bu bölümdə su ilə bağlı bir sıra ayinlər, eyni zamanda and, alqışlar və deyimlərin mahiyyəti, həmçinin Qəbələ rayonunun Nic kəndindəki "Daşbulaq", Astara rayonundakı "Yanar bulaq", Masallıda "Qaynayan quyu", Xınalıqda iri qaya altından damçılayan su damlalarının nazik bulağa çevrildiyi "Qırx Abdal", "Alxas bulağı" kimi su pirləri, Tufan gölü kimi bir çox su ilə bağlı

---

[1]Бежанов М. Краткие сведения о селе Варташен и его жителях. СМОМПК, вып.14. отд.1,Тифлис,1892, с.256.

[2]Эфендиев Р. Несколько сведений о селении Куткашин, Нухинского уезда Елизаветрольской губернии. СМОМПК. вып. ЫХ. 1890. с.140

müqəddəs yerlər haqqında verilmişdir. Su kultunun izlərini daşıyan gəlinin su dolu qabın üzərindən keçirilməsi, su bardağını aşırması, gəlin aparılarkən küçələrə su çilənməsi, sonsuz qadının axar sudan keçirilməsi kimi ənənələrin mahiyyəti araşdırılmışdır. Eyni zamanda dəfn-yas mərasimlərində də icra edilən təzə qəbrin üstünə su çilənməsi, qəbir daşının üstündə su qabı təsviri, cənazə olan evdə su qablarının böşaldılması kimi su ayinlərinə də yer verilmişdir.

Fəslin ikinci yarımbaşlığı **"Xalq bayramları və mərasimlərinin tarixi kökləri"** adlanır. Xalq bayramların tədqiqi və tarıxı köklərinin araşdırılması mənəvi mədəniyyət tariximizin vacib problemlərindəndir. Bu yarımbaşlıqda qədim adət və ayinləri özündə yaşadan xalq bayram və mərasimlərinin mənşəyi və mahiyyəti, tarixi kökləri tədqiqata cəlb edilən bölgələr üzrə araşdırılmışdır. Xüsusilə də, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini ifadə edən bayramları içərisində ən qədim bayramlardan sayılan Novruz bayramı ilə bağlı bir sıra mərasim və ayinlər araşdırılmışdır. Ümummilli Lider Heydər Əliyev Novruz bayramını xalqımızın ən qədim ənənəsi kimi qymətləndirmişdir: "Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müждəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir.[1] Xalqımızın milli təfəkküründə Novruz bayramı hələ ona bu ad verilməsindən çox-çox əvvəl əsas bayram mərasimi olmuş, sonralar Novruz("yeni gün") adı ilə yaddaşlara həkk olunaraq yaşamaqda davam etmişdir. Odur ki, bu qədim bayramı xalqımız hər zaman bayramların bayramı saymışdır. Yaşlı nəslın bayram anlayışı ilk növbədə Novruz-bahar bayramı ilə özləşmişdir. Bunu ədəbi mətnlərdən, məsələn, Molla Pənah Vaqifin "Bayram oldu, heç bilmirəm neyləyim", M.Şəhriyarın "Bayram idi gecə quşu oxurdu" misraları ilə başlanan şerlərində də görmək mümkündür. Bu misralardakı düşüncənin məhz Novruz bayramından yarandığına şübhə yeri qalmır.

Dissertasiyada baharın gəlişi ərəfəsində tədqiqata cəlb edilən bölgələrdə icra edilən bir sıra spesifik ayinlər, respublikamızda yaşayan hər

---

1 Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki. Bakı şəhəri, 19 mart 2003-cü il. "Azərbaycan" qəzeti, Bakı, 2003, 20 mart

bir xalqın, hər bir etnik qrupun özünəməxsus Novruz mərasimləri geniş təhlil edilmişdir. Tədqiqata cəlb olunan bölgələrdə Novruz bayramı ərəfəsində "Ukur", "Otsbay", "Vərtivər", "Qorqod", "Peysax", "Yaransuvar", "Xibli" Suvar kimi müxtəlif adlarla bahar mərasimləri keçirilir və bu mərasimlərin hər biri bütövlükdə Azərbaycan Novruz mərasimlərinə özünəməxsus rəng qatır. Bu bənddə yuxarıda qeyd olunan mərasimlərin hər birindən ayrı-ayrılıqda bəhs edilmiş, onların ümumi və spesifik cəhətləri müəyyən edilmişdir. Udilərin yaşıllıq ilahəsinin şərəfinə keçirilən qədim türk mərasimini xatırladan "Vərtivər", ingiloyların "Qorqot" kimi mərasimlərinin türk dünyası xalqlarının bayram mərasimləri ilə oxşar çəhətləri təhlil edilmişdir. Məlumdur ki, qədim türk xalqları yaşıllıq ilahəsinin, yeniləşən təbiətin şərəfinə müxtəlf ayinlər icra etmişlər. [1] Udilərin "Vərtivər" bayramı ərəfəsində gənc qızlar əllərinə xına yaxır, "Vərtivər çiçəyi" adlandırdıqları çöl çiçəklərini toplayaraq çələng düzəldir və evlərə paylayırdılar. Orta Asiya türklərində də yaz ərəfəsində yeniyetmələr udilərdə olduğu kimi çollərdən boyçiçəyi toplayaraq həyət-həyət gəzir, xüsusi mahnılar oxuyaraq bu çiçək toplusunu təqdim edərdilər. Ev sahibi də çiçəkləri öpüb qoxlayar, boyçiçəyindən "üstlərindən ağırlığın götürülməsini, öz yüngüllüyünü onlara verməsini" dilərdilər və daha sonra uşaqlara şirniyyat, quru meyvələr hədiyyə edərdilər. Orta Asiya türklərində də yaz ərəfəsində uşaqlar udilərin"vərtivər çiçəyi" adlandırdıqları çöl çiçəklərini-boyçiçəyini toplayaraq həyət-həyət gəzir, xüsusi mahnılar oxuyaraq topladıqları çiçəklərdən evlərə paylarlar. Xarəzm özbəklərinə məxsus Qızılgül bayramında da "Vərtivər" bayramında olduğu kimi həm qızlar, həm də oğlanlar bir araya gələr, udi bayramlarında olduğu kimi qızlar və oğlanların birgə rəqs edib əylənməsinə, əhalinin müsəlman olmasına baxmayaraq hətta xüsusi olaraq bu bayram üçün hazırlanmış «müsəllas» adlı şərab içilməsinə də icazə verilərdi.[2] Bu da onu göstərir ki, bu mərasimlər daha qədim, islamaqədərki ibtidai inancların izlərini daşıyır.

İngiloyların yaz bayramı tədbirləri isə baharın daxil olduğu andan başlayır və aprelin sonlarına qədər davam edir. "Qor" sözünün od, "qut" sözünün isə qədim türk dillərində bərəkət mənasında işləndiyi nəzərə alsaq, "Qorqot" sözü od, bərəkət mənasında başa düşülməlidir. Bu bayram qədim türk mərasimlərindən olan Xıdırəlləz (Xızır İlyasla) daha çox səsləşir.

---

[1] Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, Yazıçı, 1983, s.56-70.

[2] Сухарева О.А. Празднества цветов у равнинных таджиков (конец ХЫХ-нач ХХ в. / Древние обряды, верования и культы народов Средней Азии. Историко-этнографические очерки. Москва, Наука, 1986, с.34.

Maraqlıdır ki, İngiloylar baharın ilk elçisi olan durna quşuna da "qorqot" deyirlər və qeyd olunan bayram hər il durna köçünün başlanması ilə üst-üstə düşür. Qorqot bayramında keçirilən mərasimlərin 40 gün davam etməsi də Azərbaycan türklərində Novruzdan sonrakı 40 günlə bağlı xalq inamları ilə üst-üstə düşür.

XIX-XX əsrin əvvəllərində Azərbaycanda "Qızılgül bayramı", "Həlma", "Pukivak"(ləzgilər), "Tut nübgarı" (ingiloylar), "Kürmükoba" (ingiloylar), "Otsbay"(avarlar) "Günəşin gözünü yandırmaq"(talışlar), "Qora bayramı", "Komrad" bayramı(udilər) kimi spesifik xalq bayramları da keçirilirdi. Bu bayram mərasimlərinin müəyyən spesifik ayrıntıları olsa da bütövlükdə bu mərasim ayinlərinin mahiyyəti eyni idi, yəni bahar-yaz bayramı mahiyyətində idi.

**"Xalq mərasimlərində etnik ənənələr"** adlanan beşinci fəslin üçüncü yarımbaşlığında həm Azərbaycan türkləri, həm də Azərbaycanda məskun olan digər etnosların xalq mərasimlərində etnik ənənələr araşdırılmışdır. Bu yarımbaşlıqda Azərbaycan türklərinin Qurban, Orucluq kimi bayramlarda icra etdikləri "yastılıq", "yığnaq" adətləri, XIX əsrdə Aşura mərasimlərinin təsvirinə və s. yer verilməklə yanaşı digər etnik qrupların da xalq mərasimlərindəki etnik ənənələri təhlil edilmişdir. Məsələn, udilərin dini bayramlarından biri olan "Kalaaxsibay"da (tərcümədə "Böyük bayram") "Qerqes" məbədinin həyətində qoyun qurban kəsilir, yumurta boyanırdı. Udilər bura gətirdikləri qurbanlıq qoyunu 3 dəfə kilsənin ətrafında dolandırıb torpaq qatılmış müqəddəs duz yedizdirib sonra kəsərdilər. Bəzən xoruz da qurban kəsilərdi. Bu ayinlərdə qədim inanclar sisteminin izləri açıq-aşkar özünü biruzə verir. Bu bayram ərəfəsində udilər 7 həftə pəhriz saxlamaqla bərabər, keçmişdə 7 gün oruc da tutardılar. Lakin müsəlmanların tutduğu orucdan fərqli olaraq udilər gün ərzində cəmi bir dəfə yemək yeyər, yəni orucu axşamdan axşama açarlarmış. Udilər də Azərbaycan türkləri kimi müqəddəs yerləri ocaq adlandırırlar. Məsələn, məbədlərinə "Müqəddəs Georgi ocağı", "Kömrat ocağı", "Çotari oçağı", "Yaloylutəpə oçağı", "Bulun oçağı "deyirlər.

Gəldiyimiz qənaətə görə bütün azərbaycanlılar, yəni həm Azərbaycan türkləri, həm də avarlar, ləzgilər, udilər, ingilooylar, talışlar, tatlar, Şahdağ etnik qrupları kimi Azərbaycanda yaşayan digər etnoslar xristianlıq, islam kimi klassik ideologiyaları mənimsələr də onların mərasim adətlərində ibtidai inamların izlərinə də rast gəlinir. Tədqiq etdiyimz bölgələrdə yaşayan istər müsəlman əhali, istərsə də xristian əhali öz tarixi keçmişlərinə, ortaq mənəvi dəyərlərinə sadiq qalaraq qədim inanclar sisteminin ən arxaik elementlərini öz məişətlərində qoruyub saxlaya bilmişlər. Polietnik

bölgələrdəki məsələn, Qax rayonu ərazisindəki "Pəriqala piri"ni (Güllük kəndi), "Kürmük" məbədini (Qax rayonu), "Gömrad piri"ni (Oğuz rayonu), "Şeşpər baba piri"ni (Qəbələ rayonu) inancından asılı olmayaraq istər xristian, istərsə də müsəlman əhali eyni dərəcədə inanaraq ziyarət edir, burada birgə ayinlər icra edirlər. Bu da yerli əhalinin ortaq mənəvi dəyərlərə sahib olduğunu göstərir.

Dissertasiya işinin **"Nəticə"** hissəsində mövzu ilə bağlı ümumiləşdirmələr aparılmış, tədqiqatın əsas istiqamətləri açıqlanmış, və aşağıdakı elmi nəticələrə gəlinmişdir:

1. Azərbaycanlıları toy, doğum, yas mərasimləri ilə bağlı adətlərinin, inanclarının araşdırılması həm Azərbaycan türkləri, həm də avar, saxur, rutul, ingiloy, udi, ləzgi, xınalıq, buduq, qrız, kürd, talış kimi Azərbaycanda yaşayan etnosların hər birinin adət və inanclarının ayrı-ayrılıqda, həmçinin qarşılıqlı müqayisələrlə təhlil edilməsi onların lokal, səciyyəvi xüsusiyyətlərinin, eyni zamanda birgə yaşayış nəticəsində formalaşmış etnomədəni və etnoqenetik əlaqələrinin araşdırılması, bütövlükdə Azərbaycan mənəvi mədəniyyət tarixinin qədim və zəngin ənənələrinin üzə çıxarılmasına imkan vermişdir.

2. Azərbaycanın tədqiqata cəlb etdiyimiz bölgələrində yaşayan etnosların adət və ənənələrində uzunmüddətli birgə yaşayış nəticəsində bütövlükdə azərbaycanlılara xas olan etnik ənənələr üstünlük təşkil etsə də, ənənəvi mədəniyyəti nə qədər bir-birinə yaxın və oxşar olsa da, Azərbaycanda yaşayan etnoslar özlərinin spesifik xüsusiyyətlərini, adət-ənənələrini, inamlarını da müəyyən dərəcədə qoruyub saxlayaraq bu günümüzədək yaşatmışlar. Bunu bölgələrdə adət və inamlarla bağlı müxtəlif ayin və ənənələrin, folklor nümunələrinin araşdırılması da göstərdi.

3. Etnosların adət-ənənənələrində spesifiklik müşahidə edilsə belə yaşadıqları ölkənin spesifikası da öz əksini tapmış, bu etnosların hər birinin etno-mədəni inkişaf prosesinə Azərbaycan türklərinin böyük təsiri olmuşdur.

4. Azərbaycan türkləri ilə ic-icə yaşaması nəticəsində Azərbaycanda yaşayan etnosların adət-ənənəsində fərqli cəhətlərdən daha çox oxşar cəhətlər üstünlük təşkil edir.

5. Bütövlükdə bu etnoslar Azərbaycan etnomədəni mühitində formalaşmışlar.

6. Bu etnosların hər birinin ümumazərbaycan mədəniyyətinə öz qatqısı olmuş, ortaq Azərbaycan mədəniyyətinin formalaşmasında hər bir etnos, etnik qrup özünəməxsus şəkildə iştirak etmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı 2 monoqrafiyası və elmi məqalələrində öz əksini tapmışdır:**

1. Azərbaycanın qədim diyarı Xınalıq. Monoqrafiya. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı. 2006. 60s.

2. Ailə mərasimlərində etnik ənənələr. Monoqrafiya. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 2008, 300 s.

3. Şahdağ xalqlarının etnik tarixinə dair / Qafqaz Albaniyasının Azərbaycanın və Qafqazın tarixində yeri və rolu. Beynəlxalq elmi konfransın əsərləri. Bakı, Mülki Aviasiya redaksiyası, 2012, s. 286-292.

4. Azərbaycanda mərasim ayinlərinin mənşəyinə dair // Azərbaycan arxeologiyası və etnoqarfiyası. Bakı, Nafta-Press, 2011, s.161-166.

5. Azərbaycan etnoqrafik xəzinələr muzeyidir // Tarix və onun problemləri. N1. Bakı, Adiloğlu, 2011, s.232-237.

6. Bahar mərasimlərinin mənşəyi haqqında // Azərbaycan Pedoqoжi Universiteti xəbərləri. N2. Bakı, 2011, s.168-174.

7. Novruz mərasimlərində etnik ənənələr // Dədə Qorqud. Elmi-ədəbi toplu I. Bakı, Nurlan, 2011, s.36-44.

8. Azərbaycanlıların arıçılıqla və balla bağlı qədim adət və inancları // Dədə Qorqud. Elmi-ədəbi toplu II. Bakı, Nurlan, 2011, s.105-112.

9. Azərbaycan dəfn-yas mərasimlərində arxaik elementlər // Dədə Qorqud. Elmi-ədəbi toplu IV. Bakı, Nurlan, 2010, s.79-92.

10. Azerbaycanın Quba-Xaçmaz Bölgəsində Etnoqenetik Əlaqələr. // YOM Türk Dünyası Kültür Dergisi, Sayı-19-20.Yaz-Güz. İstanbul, Kilim Matbaaçılık, 2010, s.95-109.

11. Gədəbəy toponimikasında qədim türkmənşəli tayfaların izləri // Azərbaycan arxeologiyası və etnoqarfiyası, N2, Bakı, Nafta-Press, 2010, s.116-119.

12. Azərbaycanın şimal-qərbində qədim etnoqenetik əlaqələrin izləri // Azərbaycan Milli Elmlər Akademiyası Tarix Institutu. Elmi əsərlər, cild 31. Bakı, 2009, s.60-67.

13. Şəki-Zaqatala bölgəsinin dəfn-yas mərasimlərində qədim ənənələrin izləri // Azərbaycan arxeologiyası və etnoqarfiyası. N1. Bakı, Nafta-Press, 2009, s.185-195.

14. Azerbaycanın Eski Düyünlerinde Oyun ve Eylenceler. // Kardeş kalemler. Aylık Avrasiya Edebiyat Dergisi. Sayı 35, Kasım. Ankara, 2009, s.75-81.

15. Azərbaycan toy mərasimlərində ayinlərin rolu // Mədəni Maarif. N4, Bakı, 2009, s.61-63.

16. Avar xalqının etnik tarihinden // Milli folklor. Uluslararararası Kültür

Araşdırmaları Dergisi. Sayı 80, Ankara, 2008 , s.64-70.
17. Şəki-Zaqatala bölgəsində pir inancları // Azərbaycan arxeologiyası və etnoqarfiyası. Bakı, Nafta-Press, 2008, s.135-141.
18. Novruz bayramının tarixi kökləri // YOM Türk Dünyası Kültür Dergisi, N10, Bakı, Qanun, 2008, s.55-62.
19. Pirı Şeki-Zakatalğskoqo reqiona / Kavkaz. Şamkir arxeoloqiçeskoe nasledie, istoriə i arxitektura. Materialı pervoy respublikanskoy nauçno-praktiçkskoy konferenüii. 2007. Şamkir. Baku, Çaşıoğlu 2008.
20. Azerbaycan Türklerinin Etnik Tarihine Kısa bir Bakış / Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu. Uluslararası Asya ve Kuzey Afrika Çalışmaları Kongresi 38. IKANAS. Ankara, 2007, s. 228.
21. Şahdağ xalqlarında pir inancları // YOM Türk Dünyası Kültür Dergisi. N5, Bakı,TS, 2007, s.32-41.
22. Qədim türkmənşəli tayfaların izləri Azərbaycan toponimlərində // YOM Türk Dünyası Kültür Dergisi. N8, Bakı, TS, 2007. s.6-16.
23. Azərbaycan toy mərasimlərində ənənələr / 2006-2007-cı illərdə Azərbaycanda aparılmış arxeoloжi və etnoqrafik tədqiqatların yekunları. A.A.Abbasovun anadan olmasının 70 illiyinə həsr olunmuş elmi sessiyanın materialları. Bakı, Elm, 2007, s.155-157.
24. O drevnix verovaniəx «Şaxdaqskix narodnostey» / Arxeoloqiə, gtnoloqiə, folkloristika Kavkaza. Tbilisi, 2007
25. Azərbaycanda balla bağlı inanclar / Ortaq Türk Keçmişindən Ortaq Türk Gələcəyinə" V Uluslararası Folklor Konfransının Materialları. Bakı, 2007.
26. "Şahdağ etnik qrupu"na daxil olan etnosların ailə məişətində qədim inancların izləri. "Dədə Qorqud". Elmi-ədəbi toplu.IV. Bakı, Səda, 2006, s.125-135.
27. Azərbaycanlıların qədim dini-mifik təsəvvürlərində kosmoqonik inamların yeri // Folklor və etnoqarfiya. Beynəlxalq elmi жurnal. N1. Bakı, 2006, s.64-76.
28. Gədəbəy toponimikasında qədim türkmənşəli tayfaların izləri / Ortaq Türk Keçmişindən Ortaq Türk Gələcəyinə" IV Uluslararası Folklor Konfransının Materialları. Bakı, 2006, s. 201-203.
29. Azərbaycanda doğum adətlərində inancların yeri / 2003-2004-cü illərdə aparılmış arxeoloжi və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiyanın materialları. Bakı, 2005, s.208-210.
30. Azərbaycan toy mərasimlərində ayinlərin rolu. // Folklor və etnoqarfiya. Beynəlxalq elmi жurnal. N7. Bakı, 2005, s.71-76.
31. Azərbaycanın şimal-qərb bölgələrində doğumla əlaqəli adət və

inamlar // Elmi axtarışlar. (Folklorşünaslıq: filologiya, fəlsəfə, tarix və nəzəriyyə aspektləri). Bakı, 2005, XIV toplu, s.434-438.

32. Mesto astralğnıx verovaniy v reliqiozno-bıtovıx vozzreniəx azerbaydжanüev / Arxeoloqiə, gtnoloqiə, folğkloristika Kavkaza. Baku, 2005, s.255-257.

33. Türkmənşəli qarqar tayfasının Azərbaycanın etnik tarixində yeri / Ortaq Türk Keçmişindən Ortaq Türk Gələcəyinə" III Uluslararası Folklor Konfransının Materialları. Bakı, 2005, s.519-521.

34. Şəki-Zaqatala bölgəsinin toy mərasimlərində xalq tamaşaları. (XIX-XX əsrin əvvəlləri) // Azərbaycan arxeologiyası və etnoqarfiyası. Bakı, 2004, s.270-274.

35. Koroğlu dastanında etnoqrafik lövhələr. / Türk Halklarının Edebi Geşmişi: Türk Destanları. Uluslararası Sempozyum. Bakı, 2004, s.79-87.

36. Simvolika v svadebnıx obrədax Azerbaydжana / Arxeoloqiə, gtnoloqiə, folkloristika Kavkaza. Tbilisi, 2004, s.224.

37. Azərbaycanda xalq oyun və mərasim tamaşaları / Ümummilli liderimiz Heydər Əliyevin xatirəsinə və 28 May Respublika gününə həsr olunmuş beynəlxalq elmi-praktiki simpoziumun materialları. Bakı, 2004, s.218-219.

38. Azərbaycanda toy mərasimlərində etnik ənənələrin bəzi məsələlərinə dair / Arxeologiya və etnoqrafiya institutunun 10 illiyinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 2003, 135-137.

39. Şəki-Zaqatala bölgəsində Novruz mərasimləri // Filologiya məsələləri. N2. Bakı, 2002, s.89-91.

40. Atalar Sözlərində Etnoqrafik Lövhələr // Qafqaz Universiteti Jurnalı. N10. Bakı, 2002, s.113-123.

41. Azərbaycanın şimal-qərb bölgəsində inanclar // Qafqaz Universiteti Jurnalı. N7, Bakı, 2001. s.89-97.

42. Quba etnonimi haqqında / Azərbaycan onomastika problemləri. III. Bakı,1990, s.154-156.

**Пашаева Махаббат Тофик кызы**
**Обычаи и верования азербайджанцев**

## РЕЗЮМЕ

Данная диссертация посвящена исследованию обычаев и верований азербайджанцев и их сравнительному анализу с обычаями и верованиями аварцев, цахур, ингилойцев, удин, татов, горских евреев, лезгин, талышей, хыналыгцев, будухов, грызов и других этносов, проживающих вместе с азербайджанцами в XIX-нач. XX вв. в Азербайджане. В диссертации дается сравнительный анализ обрядов свадеб, рождений, поминок и народных верований азербайджанцев и вышеупомянутых этносов. В работе были обобщены и исследованы обряды и специфические черты верований каждого этноса в отдельности и в ходе сравнительного анализа определены их общие традиции. Для проведения сравнений к исследованию были привлечены этнографические материалы многих тюркских народов и получены новые научные результаты.

Диссертация состоит из введения, пяти глав, заключения, списка использованной литературы и списка принятых сокращений. Здесь же прилагаются список информаторов и фотоальбом с изображениями исследованного этнографического материала.

В введении обоснована актуальность и значение темы диссертации, дан широкий комментарий степени изученности проблемы. По пунктам рассмотренны цели и задачи исследования, дана характеристика проблемы, указаны методологические основы работы, обоснована ее научная новизна, практическое значение, апробация.

Первая глава диссертации называется «Этносоциологическое положение в Азербайджане в XIX-нач. XX вв.». В этой главе исследования даны общие сведения о регионах Азербайджана в XIX-нач. XX вв., этнический состав населения регионов, статистика, историко-демографические сообщения и в том числе ареал распространения этносов, отводится место для этногенетических связей.

Вторая глава диссертации под заглавием «Специфические черты и общие традиции в свадебных обрядах азербайджанцев в XIX-нач. XX вв.» посвящена сравнительному анализу свадебных церемоний азербайджанцев и аварцев, цахуров, ингилойцев, удин, татов, горских евреев, лезгин, талышей, этносов «Шахдагской» этнической группы,

проживающих наряду с азербайджанцами в регионах Азербайджана в XIX-нач. XX вв., на основе историко-этнографических материалов. Наряду с отмеченными специфическими чертами были определены общие традиции в свадебных обрядах.

Третья глава называется «Религиозно-магическая структура в обрядах рождения». В этой главе исследованы регионные особенности обрядов, исполняемых против бесплодия, проанализированы дородовые, родовые и послеродовые обычаи, истоки специфических обрядов, связанных с традициями родов, были проведены параллели с традициями рождения у многих тюркских народов.

В четвертой главе диссертации, называющейся «Архаические традиции в погребально-поминальных обрядах», исследованы самые древние верования и пережитки идеологий, связанных со смертью, уцелевшие и сохранившиеся архаичные обряды в погребально-поминальных ритуалах Азербайджана в XIX-нач. XX вв. Были проанализированы и исследованы архаичные верования и древние представления, бытующие в народе о вечной жизни и душе, мировоззрения сязанные с признаками наступающей смерти, о магии, направленной на предупреждение смерти. Также были исследованы обряды, осуществляемые перед и после смерти, во время и после погребений, а также выхода из траура и принципы раздела наследства.

В пятой главе под названием «Народные верования» к исследованию были привлечены космогонические верования, исследованы следы древних религиозно-мифических представлений, пережитки таких первобытных верований, как культ солнца с его атрибутами огня, магические обряды, культ животных и культ деревьев, культ горы, культ воды, культ предков, культ сглаза и др. В данной главе также были исследованы этнические традиции в народных праздниках и церемониях.

В заключении обобщены результаты исследованиия, даны обоснованные предположения научных результатов, полученных во время исследования. Сделаны следующие выводы: исследования обычаев и верований азербайджанцев и их сравнительный анализ с обычаями и верованиями аварцев, цахуров, ингилойцев, удин, татов, горских евреев, лезгин, талышей, хыналыгцев, будухов, крызов, проживающих вместе с азербайджанцами в XIX-нач. XX вв. в Азербайджане, дали возможность раскрыть локальные и характерные черты каждого этноса, и в том числе выявить этнокультурные, этногенетические связи, древние и богатые традиции духовной культуры Азербайджана.

Результаты сравнительных анализов показали, что этносы, проживающие в изученных нами регионах Азербайджана, несмотря на совместное проживание, на преобладание этнических традиций, свойственных в целом азербайджанцам и на близость традиционных культур, на протяжении веков смогли сохранить в своих обрядах, традициях, и верованиях некоторые этнические специфические черты.

Это показали анализы исследования многообразных ритуалов и обрядов, а также связанных с ними элементов фольклора в изучаемых нами регионах. Но, надо отметить, что в обрядах этносов, живущих рядом с азербайджанцами сформировалось больше общих черт, чем различий. На процесс этнокультурного развития этих этносов значимое влияние оказала общеазербайджанская среда и в обычаях этносов больше проявляется специфика страны, в которой они живут. Ещё в XIX в. в Азербайджане уже было сформировано как духовно, так и социально этническое объединение.

Таким образом, в целом каждый этнос, входящий в этносоциальное единство азербайджанского народа, несмотря на специфические черты своих обрядов и верований, формировался в азербайджанской этнокультурной среде. И каждый этнос внес существенный вклад в общеазербайджанскую культуру и участвовал в формировании современного азербайджанского народа.

**Pashayeva Mahabbat Tofiq**
**Traditions and worships of Azerabaiжani**

## SUMMARY

Dissertation dedicated to the investigation of worships and traditions of Azeribaiжani, also to the comparative analysis of worships and traditions of azerabaiжani, avar, tsakhur,ingiloys, udins,tats, moutain israilian, lezgi,talish and aslo ethos of Shahdaq ethic group who lived in Azerbaiжan from the begginng of XIX- XIX centuries with azerabaiжani. It was generalized and investigated all rites and specific featuares of worships for every ethosseperately and together in coparative analysis, additionally beside difference it was aslo generalized common traditions. Disseratation includes coparative analysis of rituals such as weeding, births, funerals and public funerals of azeri turks and other ethos. Many etho-graphic materials of turk nations were inluded to the investigation also for comperation also new scientific results were taken in acount.

Dissertation consist of introduction, five chapters, conclusion and list of refferences. Additionally there present list of informers and photo albom of investigated etho-graphic material.

In inroduction has been proved the relevance and importance of topic of dissertation and given quite wide comment of how deep the problem was investigated.Item by item was considered such things like - goals and aims of investigation, characteristics of problem, medological basis of жob and supported scinetific newness, practical meaning and approval of it.

First chapter is called “Ethososiological condition of Azerbaiжan in the beggining of XIX –XX centuries ” . In this chapter it’s given common information about regions of Azerbaiжan in the beggining of XIX –XX centuries , ethic structure of population in the regions, statistics, historical-demographical messages , the areal of ethos ‘ spreeding, aslo some space was allocting of ethogenetic relations.

Second chapter of dissertation is called “Specific features and common tradditions in weeding ritual of Azerbainai in the beggining of XIX –XX centuries.” Chapter was dedicated to the comparative analysis on the basis of histocal-ethographic material about wedding ceremonies of azeri turks,avars, tsakhurs, ingiloys, udins,tat, moutains isreli, lezgins, talish and aslo ethos of Shahdaq ethic group who lived in Azerbaiжan from the beginning of XIX-XX centuries. In addition to the stated spesific features also common weeding traditions were defined.

Third chapter is called “Religical-magic structure while birth ceremony”.

This chapter investigates all religical features of rituals against infertility by analizing before birth, birth , after birth rituals, source of specifics rituals which related with tradditions of birth, adn using all this paralles were made with birth tradditions in most turk nations.

Fourth chapter which is called “Archaic traditions in funeral-memorial rituals ” investigate most ancient worships and remained ideology related with death, survived and preserved archaic rituals about funeral-memorial ceremonies in Azerbaiжan in the beginning of XIX-XX centuries.Additionally was analysed adn investigated such archaic worships like , current worldview of people about death, eternal life,soul, additionally wordlview about sign before death,about magic which help to prevent the death. Also was investigated applying of rituals before and after death, after before and on funeral itself, exit from mourning and principles of division the legacy.

In the fifth chapter with heading “Public Worship” cosmogonic worships were attached to the investigation, also investigated the traces of ancient religical – miphic worldview , remains of such primitive worships like sun cult with its attributes like - fire and metal, animal cult , magic rituals, plant tree cult, moutain cult, water cult, evil eye and etc. Additionally was investiagtes ethic rituals in public holidays and ceremonies.

Conclusion consist of result of investiagation. Given supproted assumption of scientific results, obtained during investigation.

The Conclusion part of this dissertation consists of generalizations related with topic, the aspects of research and the following scientific conlusions:

The research of Azerbaiжani traditions and worships gave the opportunity to disclose the rich and ancient traditions of Azerbaiжan moral culture by giving the comparative analysis of ethos like avar, saxur, rutul, ingiloy, udi, ləzgi, xınalıq, buduq, qrız, kürd, talış which live in Azerbaiжan.

The ethos which live in Azerbaiжan generally have Azerbaiжani culture and traditions, but there are also some which preserved some specific traditions related with their tribes. However the similarities in such cultures are more than the differences. The main effect in ethno culture raise also has the country where these ethos was living. In general the culture of these ethos formed in Azerbaiжan environment. The ethos which lived in Azerbaiжan have a role in affection of general Azerbaiжan culture. In formulation of common Azerbaiжan culture each tribe, ethos and etic group has their own great role.

Azərbaycan MEA-nın mətbəəsində
çap olunmuşdur.

Bakı, H.Cavid pr. 31

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛОГИИ И ЕТНОГРАФИИ**

---

*На правах рукописи*

**МАХАББАТ ТОФИГ КЫЗЫ ПАШАЕВА**

# ОБЫЧАИ И ВЕРОВАНИЯ АЗЕРБАЙДЖАНЦЕВ

5102.01- Этнография, этнология

## А В Т О Р Е Ф Е Р А Т

Диссертации на соискание
ученой степени доктора наук по истории

**БАКУ - 2013**